**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HƏSƏN ABİD OĞLU İSRAFİLOV**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İSTEHLAK KOOPERASİYASININ İNKİŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**İxtisas: 5308.01 - "Ümumi iqtisadiyyat"**

İqtisad elmləri doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

**Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor
**Şəmsəddin Hümmət oğlu Hacıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İslam Şamil oğlu Qarayev**

iqtisad elmləri doktoru, professor
**Bəyali Xanalı oğlu Ataşov**

iqtisad elmləri doktoru, professor
**Sabir Qənbər oğlu Cümşüdov**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Müdafiə 28 fevral 2014-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universiteti nəzdindəki D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6. Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 18 yanvar 2014-cü ildə göndərilmişdir.

**D 02.051 dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d. dosent Z.İ.Mustafaeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın dövlət müstəqilliyinin bərpası ölkədə milli mənafelərə uyğun ictimai-siyasi, hüquqi-demokratik və sosial-iqtisadi islahatların aparılmasını şərtləndirmişdir. Həyata keçirilən transformasiya yönümlü dəyişikliklər iqtisadiyyatın əhəmiyyətli sahələrindən biri kimi kooperasiya sistemini, xüsusən də istehlak kooperasiyasını da əhatə etmiş və bu sferada əsaslı dəyişikliklərin həyata keçirilməsinə imkan yaratmışdır. Son illər respublikada istehlak kooperasiyasının inkişafı istiqamətində atılan uğurlu addımlar, gələcəkdə bu sahədə daha mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratmışdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Mərkəzi Kooperativlər İttifaqının XXII qurultayına göndərilmiş rəsmi məktubunda qeyd etmişdir: "İstehlak kooperasiyası ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır və hesab edirəm ki, kooperativlər bundan sonra da ticarət, tədarük və istehsal sahəsindəki funksiyalarını layiqincə yerinə yetirəcək və kəndin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verəcəkdir."[1]

Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativlər vasitəsilə ölkə iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir, təsərrüfatçılığın mühüm sahələrindən biri kimi bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasına zəmin yaradır. Kooperativlər dünyada özünün rəqabət qabiliyyətliliyi sayəsində iri sahibkarların iştirakı olmadan belə, effektiv kənd təsərrüfatı istehsalını təşkil etmək gücündə olan yeganə təsərrüfatçılıq forması hesab edilir.

Beynəlxalq Əmək Təşkilatı "kooperativ" anlayışını belə müəyyən etmişdir: "Kooperativlər məhdud resurslara malik insanların özlərinin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün muxtar və demokratik idarəetməni formalaşdırmaq məqsədilə birləşdikləri assosiasiyalardır."[2] Qeyd etmək lazımdır ki, kooperasiya hərəkatının zəruriliyi ən yüksək beynəlxalq səviyyədə də xüsusi vurğulanmışdır. Belə ki, BMT-nin Baş katibi Pan Qe Mun müasir dünyada

---

[1] Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Mərkəzi Kooperativlər İttifaqının 22-ci qurultayına məktubu, 5 sentyabr 2013-cü il.

[2]www.ilo.org

kooperativlərin rolu barədə demişdir: «Kooperativlərin sosial-iqtisadi inkişaf sahəsinə töhfəsi ondan ibarətdir ki, onlar bir müəssisə kimi öz üzvlərinə mənsubdurlar, məhz onların mülkiyyətindədirlər. Bu xüsusiyyətinə görə, kooperasiyada kommersiya müəssisənin təşkilinin elə forma və metodlarından istifadə edilir ki, nəticədə əhalinin aztəminatlı qrupları öz hüquq və imkanlarının cəmiyyətdə genişləndirilməsinə nail ola bilir» [3].

Həm dünya üzrə, həm də Azərbaycanda istehlak kooperasiyası haqqındakı müasir gerçəkliklər bundan ibarətdir ki, o, insanları istehsal, xidmət, ticarət, nəqliyyat, kommunal xidmətlər, turizm, innovasiya texnologiyaları və digər bu kimi sahələrin sahibi etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır və daha da genişləndirir. Təsadüfi deyildir ki, məhz kooperativlərin böyük əksəriyyəti ölkədə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verməklə iqtisadi həyatla bağlı bir sıra neqativ halların qarşısının alınmasına da şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsüsi çəkisi durmadan yüksəlməkdədir.

XX əsrin əvvəllərindən Azərbaycanda yaranmış kooperasiya institutu bütün yüzillik ərzində respublika iqtisadiyyatının dirçəlişində çox mühüm təsisatlardan biri olmuşdur. Sovet İttifaqı dövründə Azərbaycan əhalisinin $^2/_3$ hissəsinə müxtəlif ticarət, ictimai iaşə, tədarük və sair xidmətlər göstərən bu sahə, respublikanın ümumi əmtəə dövriyyəsində yüksək xüsusi çəkiyə malik olmuşdur. Sovet İttifaqının dağılması və yeni iqtisadi sistemə keçid şəraitində uzun illər ərzində yaranmış əlaqələrin qırılması ilkin dövrlərdə kooperasiya sektorunda böhranlı vəziyyət yaratmış, onun rəqabət qabiliyyətliyini zəiflətmiş və son nəticədə bazar münasibətlərinə transformasiya prosesini ləngitmişdir.

İqtisadiyyatın digər sahələrində çox mühüm nailiyyətlərin əldə edilməsinə baxmayaraq, respublikamızda kooperasiya sektorunun hələ bu gün də tam davamlı inkişaf zolağına keçdiyini söyləmək mümkün deyil. İqtisadi araşdırmalar göstərir ki, bu sferada əsas aparıcı qurum olan Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı

[3] BMT-nin 2011-ci ildə keçirilmiş 66 saylı Baş Assambleyasında Baş katib Pan Qe Munun məruzəsi.

(*«Azərittifaq»*) bazar münasibətlərinə keçid prosesində özünün ilkin potensialını xeyli itirdiyindən və onun resurs bazası məhdudlaşdığından, həmçinin bazar prinsiplərinə tam dolğun cavab verən yeni miqyaslı kooperasiya sistemi formalaşmadığından, ümumilikdə respublikada kooperativ hərəkatın effektivliyi və dinamikası, iqtisadi gücü etibarılə digər inkişaf etmiş ölkələrlə müqayisədə hələlik zəif görünməkdədir. Sahəvi institusional mühit və investisiya qoyuluşunun məhdudluğu, bankların kooperasiya sektoruna geniş maraq göstərməməsi, təşviqat işlərinin zəif təşkili və digər bu kimi səbəblər, istehlak kooperasiyasına, bütövlükdə kooperativ sektorun inkişafına mənfi təsir göstərmişdir. Bütün bunların nəticəsidir ki, kooperativlər öz işini kifayət qədər səmərəli təşkil edə bilmədikləri üçün, digər analoji bazar subyektləri ilə müqayisədə yetərli rəqabətə davamlılıq nümayiş etdirə bilməmişlər.Lakin aparılan elmi təhlil və iqtisadi araşdırmalar kooperasiyanın böyük potensiala malik olduğunu söyləməyə əsas verir. Təbiidir ki, kifayət qədər potensiala malik olmaq, kooperasiyanın ölkədə gedən iqtisadi proseslərə təsiretmə imkanlarını genişləndirir. İstehlak və xidmətlər bazarının tutumunun artırılmasında da bu sektorun rolu əvəzsizdir. Elə buna görə də, hazırda ölkədə əlahiddə mülkiyyətçilik hüququna malik olan həmin sistemin yenidən dirçəldilməsi istiqamətində mühüm işlər görülməkdədir. Gələcəkdə müvafiq institusional və investisiya yönümlü stimullaşdırıcı tədbirlərin daha da gücləndiriləcəyi təqdirdə, respublikada əvvəlki dövrlərdə yüksək çeviklik nümunəsi olmuş kooperasiyanın da, digər bazar ölkələrində olduğu kimi, yeni inkişaf mərhələsinə keçidini təmin etmək mümkündür. Bunun üçün isə, ölkədə əhəmiyyətli iqtisadi resurslar, yetərli kadr potensialı və müvafiq iqtisadi fəal əhali kontingenti mövcuddur. Onlardan səmərəli istifadə etməklə, kooperativ sektorda, xüsusən də istehlak kooperasiyası sahəsində hərtərəfli inkişafı təmin etmək, onun sistem təkmilliyini gücləndirmək mümkündür.Bütün bunların əsaslı təminatı üçün isə, mövcud sahəvi normativ-hüquqi bazanın genişləndirilməsi, kooperativ sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısının artırılması və müvafiq uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması zəruri hesab edilir. Qloballaşma şəraitində mühüm makroiqtisadi əhəmiyyət kəsb edən məsələlərin kompleks həlli üçün istehlak kooperasiyanın inkişafına mane olan amillərin müəyyənləşdirilməsi, istehlak bazarı-

nın mövcud vəziyyətinin qiymətləndirilməsi, bu istiqamətdə formalaşdırılacaq yeni strategiyanın elmi əsaslarının işlənməsi və perspektivlərinin müəyyən edilməsi çox mühüm şərtlərdəndir. Buna görə qloballaşma şəraitində respublikada istehlak kooperasiyasının inkişaf problemlərinin və perspektivlərinin kompleks tədqiqi, iqtisad elmi qarşısında xüsusi aktuallıq kəsb edən bir məsələ kimi durmaqdadır. Məhz bu baxımdan bazar iqtisadiyyatı şəraitində istehlak kooperasiyasının nəzəri-metodoloji əsaslarının, metodoloji və metodik aspektlərinin, kooperativ fəaliyyətin forma və prinsiplərinin təhlili, kooperasiya sisteminin fəaliyyət səmərəliliyinin artırılmasında dövlətin tənzimləyici funksiyasının səmərəli təşkil olunması və Azərbaycanda istehlak kooperasiyasının inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi dissertasiya işinin tədqiqat mövzusunun seçilib işlənməsini zəruri etmişdir.

**Problemin öyrənilmə səviyyəsi**. İstehlak kooperasiyasının problemlərinin tədqiqi tarixən həm SSRİ məkanında, həm də bazar iqrisadiyyatı şəraitində Azərbaycan iqtisad elmi qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur. Kooperativ hərəkatının təşəkkülü və genişləndiyi dövrlərdə onun inkişaf qanunauyğunluqlarının öyrənilməsi, bu sferada əldə olunan nailiyyətlərin sistemləşdirilməsi və elmi cəhətdən ümumiləşdirilməsi istiqamətində respublikada postsovet məkanında çox dəyərli elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Lakin müasir dövrdə kooperasiya fəaliyyətinə həsr edilmiş tədqiqatlar olduqca azdır, elə bunun nəticəsidir ki, ədəbiyyat siyahısı tərtib edilərkən, Azərbaycan tədqiqatçılarının bu sahədə fundamental əsərlərinə az rast gəlinir. Lakin qeyd etmək lazımdır ki, istehlak kooperasiyasının və istehlak bazarının ayrı-ayrı problemlərinin tədqiqinə ölkənin iqtisadçı - alimləri A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.R.Ələsgərov, Ə.X.Nuriyev, Ş.H.Hacıyev, İ.H.Alıyev, B.X.Ataşov, A.B.Abbasov, Ş.A.Cəbrayılov, H.B.Allahverdiyev, Ə.P.Balayev, A.İ.Şirəliyev, M.A.Əhmədov, H.A.Xəlilov, İ.V.Əhmədov, Ə.Q.Əlirzayev, İ.Ə.Feyzullabəyli, S.V.Salahov, G.Ə.Gənciyev, Ç.K.Həsənov, R.T.Həsənov, İ.H.İbrahimov, İ.A.Kərimli, İ.Ş.Qarayev, Ə.M.Qaravəliyev, Ə.C.Qasımov, T.Ə.Quliyev, M.M.Sadıqov, A.H.Səmədov, S.Q.Cümşüdov, E.A.Quliyev, M.X.Meybullayev, Q.N.Manafov, A.İ.Məmmədov, A.Z.Mirzəmmədov, Ə.C.Verdiyev, L.A.Rəhimova, Q.B.Tabasaranski və başqaları öz

əsərlərində müəyyən yer vermişlər [3-5, 14, 16, 21, 22, 24, 25, 28, 31, 41, 42, 48-50, 52, 54-56, 58, 59, 61, 86, 96, 137]. Qeyd etmək lazımdır ki, yuxarıda adı çəkilən müəlliflərlə yanaşı kooperasiya problemlərinin tədqiqi dünya alimləri tərəfindən də geniş elmi araşdırma predmetinə çevrilmişdir. Bu sahədə dünya arenasında ilkin fundamental tədqiqat müəllifləri olaraq R.Ouen, Ş.Furye, U.Kinqa, Q.Şulsed Beliç, F.Rayfayzinq, K.Marks, V.İ.Lenin və başqaları çıxış etmişlər. Türkiyə alimləri Z.G.Mülayim, H.Müftüoğlu, H.Koç, İ.H.İnan, E.Kılıç, A.Çıkın, N.Bilgin, Ş.Tanıyıcı, S.Güven, rus iqtisadçı-alimləri M.İ.Tuqan-Baranovski, A.V.Çayanov, M.A.Koroveynikov, M.L.Xeysin, K.İ.Vaqitov, V.Q.Binatov, İ.N.Buzdalov, İ.V.Yemelyanov, A.V.Tkaç, L.S.Denisov, N.Y.Kovalenko, V.V.Kruqlova, V.İ.Kravtsova, E.V.Serova, V.V.Vacurin, V.D.Qonçarov, Q.A.Buçayev, İ.Q.Usaçev, A.P.Makarenko, A.V.Merkulov, V.İ.Nazarenko, V.İ.Zelqeyn, Y.S.Oqloblin, V.M.Paxomov, K.A.Pajitnov, İ.V.Skopina, Y.V.Xudyakova və başqaları kooperasiyanın nəzəri konsepsiyasının inkişafına çox mühüm və dəyərli töhfələr vermişlər [12, 18, 62, 64, 66, 69, 81, 97, 102, 103, 110, 117, 121, 130, 132, 134, 144, 146, 156, 165, 166, 168-171, 186, 187-189]. Bununla belə, qeyd edək ki, kooperasiyanın, xüsusilə də istehlak kooperasiyasının dərinləşən qloballaşma və genişlənən bazar münasibətləri kontekstində inkişaf problemləri və perspektivlərinin tədqiqi müasir dövrdə kompleks şəkildə, demək olar ki, az tədqiq olunan elmi istiqamətlərdən biri kimi qalmaqdadır. Ona görə də qloballaşma və bazar münasibətləri şəraitində istehlak kooperasiyasının problemlərinin təhlil edilməsi və perspektivlərinin elmi cəhətdən əsaslandırılmış şəkildə işlənib hazırlanması, respublika iqtisadiyyatının dinamik inkişafının daha da sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bütün bunları nəzərə alaraq, təqdim olunan tədqiqat işində qloballaşma və liberallaşma şəraitində, kompleks və sistemli yanaşmada istehlak kooperasiyasının müasir problemləri, daha qabarıq formada respublikada kooperativ fəaliyyət mexanizminin təkmilləşdirilməsi və onun effektivliyinin artırılması, istehlak bazarının genişləndirilməsi, bu istiqamətdə dövlətin tənzimləyici rolunun səmərəliliyinin yüksəldilməsi kooperasiyanın ölkədəki davamlı iqtisadi artıma, regional inkişafa verə biləcəyi töhfələrin artırılması və onun bilavasitə özünün

dinamik inkişafını sürətləndirən digər məsələlərin həlli yollarının tapılması və mexanizmlərinin aşkara çıxarılması elmi tədqiqatın əsas mövzusuna çevrilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. **Tədqiqatın məqsədi** qloballaşma və bazar münasibətləri şəraitində Azərbaycanda istehlak kooperasiyanın formalaşmasının prinsip və qanunauyğunluqları üzrə yeni elmi ümumiləşdirmələrin aparılması, istehlak bazarında məhsul bolluğunun artırılmasında və bu əsasda ölkənin xaricdən asılılığının azaldılmasında, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində istehlak kooperasiyasının, ümumilikdə kooperativ təsisisatların rolunun qiymətləndirilməsi, onun inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış nəzəri və praktikı əhəmiyyətli təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Məqsədə nail olmaq üçün qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- kooperasiyanın inkişafının tarixi mərhələlərini, kooperativlərin və onun formalaşmasının sosial-iqtisadi əsaslarını araşdırmaq, kooperativ fəaliyyətin müasir dövr üçün xarakterik olan forma və prinsiplərini müəyyən etmək və eləcə də istehlak kooperasiyasının əsas təsisatlarının işləmə prosesini empirik nöqteyi-nəzərdən qiymətləndirmək;
- kooperasiyanın nəzəri-metodoloji əsaslarını tədqiq etmək və müasir dövrün tələblərinə uyğun gələn yeni elmi ümumiləşdirmələr aparmaq;
- qloballaşma şəraitində və bazar münasibətləri sistemində istehlak kooperasiyasının paradiqmasının yerini və rolunu müəyyən etmək;
- Azərbaycanda istehlak kooperasiyasının formalaşmasının spesifik cəhətlərini aşkara çıxarmaq, istehlak kooperasiyasının mövcud vəziyyətini qiymətləndirmək;
- istehlak kooperasiyasının dövlət tənzimlənməsinin səmərəli təşkil olunmasının əsas istiqamətlərini, onun prinsip, forma və metodlarını müəyyən etmək;
- istehlak bazarının təşəkkül qanunauyğunluqlarını araşdırmaq, Azərbaycanda onun müasir vəziyyətini təhlil etməklə yeni ehtiyat imkanlarını aşkara çıxarmaq;
- Aqrar Kredit Təşkilatının fəaliyyətini qiymətləndirmək, kənd təsərrüfatına göstərilən maliyyə-kredit xidmətinin vəziyyəti-

ni, onun Birgəborclular qrupları və Kredit birlikləri vasitəsilə kreditləşdirilməsini tədqiq etmək;

- istehlak kooperasiyasının inkişafında dövlətin tənzimləyici rolunun səmərəliliyinin yüksəldilməsi istiqamətlərini müəyyənləşdirmək;
- istehlak bazarının təminatında emal sənayesinin rolunu müəyyən etmək və qiymətləndirmək;
- istehlak kooperasiyasının çoxsəviyyəli sisteminin formalaşması istiqamətlərini müəyyənləşdirmək;
- istehlak kooperasiyasında maliyyə-iqtisadi münasibətlərin təkmilləşdirilməsini tədqiq etmək.

**Tədqiqatın predmetini** qloballaşma və bazar münasibətləri şəraitində istehlak kooperasiyası sektorunun inkişaf qanunauyğunluqları və problemləri təşkil edir.

**Tədqiqatın obyekti kimi** Azərbaycanın istehlak kooperasiyası sektoru çıxış edir.

**Tədqiqatın nəzəri, empirik və metodoloji əsasını** iqtisad elmi klassiklərinin, dünya və ölkə alimlərinin institutsional bir qurum kimi, kooperasiya ilə bağlı elmi əsərlərində təqdim olunmuş konsepsiyalar, Azərbaycan Respublikasının Konstitusiyası, Milli Məclisin iqtisadi sahədə və bilavasitə kooperasiyaya aid qəbul etdiyi qanun, qərar, mülki məcəllələr, dövlətin sosial-iqtisadi, maliyyə-kredit siyasəti, regional inkişaf üzrə Azərbaycan Respublikasının dövlət proqramları, kooperasiya üzrə aparıcı təşkilatların elmi-metodik materialları və digər müvafiq elmi-informatik ədəbiyyat və məlumatlar təşkil edir.

Tədqiqat prosesində kompleks təhlildən, sistemli yanaşmadan, ekspert qiymətləndirilməsindən, müqayisəli iqtisadi təhlil və müşahidə üsullarından, statistik qruplaşdırma, sxemləşdirmə və digər iqtisadi təhlil alətləri və mexanizmlərindən istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** İqtisadi İnkişaf, Kənd Təsərrüfatı və Maliyyə nazirliklərinin, Dövlət Statistika Komitəsinin, «Azərittifaq»ın, keçmiş SSRİ-nin kooperasiya sferasının iqtisadi-texniki göstəricilərini səciyyələndirən məlumatlarına, bu problemə aidiyyəti olan təsərrüfat sübyektlərinin hesabatlarına, kooperativ bilgiləri təbliğ edən beynəlxalq təsisatların dövri nəşrlərinə, statistik məcmuələr və mühüm elmi ədəbiyyata, internet resurslarına və habelə müəllifə məxsus hesablama və təhlil materiallarına əsaslanır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakı müddəalardan ibarətdir:

- kooperasiyanın nəzəri-metodoloji əsasları, forma və prinsipləri araşdırılmış, onun inkişafının tarixi əsasları və mərhələləri, qloballaşma və bazar münasibətləri şəraitində kooperasiya münasibətlərinin təkmilləşdirilməsi, istehlak kooperasiyasının ölkə iqtisadiyyatının inkişafında rolu və əhəmiyyəti tədqiq olunmuşdur;
- yeni "kooperasiya paradiqmasının" yaranması məsələləri öyrənilmiş, Azərbaycanda istehlak kooperasiyasının müasir dövrdə inkişaf səviyyəsi və bu sahənin spesifik xüsusiyyətləri aşkara çıxarılmış, istehlak kooperasiyasının müasir vəziyyəti təhlil edilərək empirik baxımdan qiymətləndirilmişdir;
- istehlak kooperasiyasının dövlət tənzimlənməsinin əsas prinsip, forma və metodları, bazar özünütənzimləmə mexanizminin kooperasiyanın inkişafına təsiri müəyyən edilmişdir;
- kooperasiya sahəsində xarici ölkələrin, xüsusən də Türkiyə Respublikasının zəngin təcrübəsindən istifadə edilərək, Azərbaycan regionlarında yerli xüsusiyyətlər, milli adət-ənənələr nəzərə alınmaqla müvafiq kooperativ formaların tətbiq imkanları müəyyən edilmişdir;
- xarici rəqabətin əlverişsiz təzahürlərindən, kooperativ sektorun effektiv müdafiə edilməsinin çevik iqtisadi mexanizmləri müəyyənləşdirilmişdir;
- istehlak kooperasiyasının daxili bazarda yeri və rolu araşdırılmış, iqtisadi artım tempinin təmin olunmasında, regionların sosial-iqtisadi inkişafında, yeni iş yerlərin açılması və ölkə əhalisinin yoxsulluq səviyyəsinin azaldılmasında real imkanlar müəyyən edilmişdir;
- kənd təsərrüfatına göstərilən maliyyə-kredit xidmətinin vəziyyəti, kənd təsərrüfatının Birgəborclular qrupları və Kredit birlikləri vasitəsilə kreditləşdirilməsinin vəziyyəti tədqiq edilmiş və verilən kreditlərin yeni mənbələri müəyyənləşdirilmişdir;
- respublikada istehlak bazarının müasir vəziyyəti təhlil edilərək, mövcud potensial imkanları müəyyən edilmiş, onun çoxsəviyyəli sisteminin formalaşmasının əsas istiqamətləri şərh edilmişdir;

- istehlak bazarının təminatında emal sənayesinin rolu qiymətləndirilmiş, istehlak kooperasiyasında iqtisadi münasibətlərin təkmilləşməsində emal müəssisələrinin inkişafı üçün tədbirlər müəyyən edilmiş, eyni zamanda həmin sahənin maliyyə cəhətdən sağlamlaşdırılması üçün konkret təkliflər irəli sürülmüşdür;
- aqrar sahədə kooperativlərin 2020-ci ilə qədərki dövr üçün İnkişaf Konsepsiyası təklif olunmuş, istehlak kooperasiyasının bazar, xidmət və digər subyektlərlə inteqrasiyasının prioritet istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, ilk dəfə Azərbaycanda kooperasiya sektorunun, xüsusən də istehlak kooperasiyasının müasir problemləri bazar iqtisadiyyatı sferasında təhlil edilərək, elmi cəhətdən ümumiləşdirilmiş, ayrı-ayrı ixtisaslaşmış kooperativlərin səmərəli fəaliyyət mexanizminin yeni paradiqması təqdim olunmuşdur.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, burada irəli sürülən konkret təklif və tövsiyələrdən Azərbaycanda kooperasiya sisteminin institusional bazasının təkmilləşməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində istehlak kooperasiyasının rolunun artırılması, «Azərittifaq»ın fəaliyyət səmərəliliyinin daha da genişləndirilməsi və diversifikasiyası istiqamətində əsas və alternativ elmi mənbə kimi də istifadə edilə bilər. Tədqiqat işində müasir qloballaşma şəraitində respublikada istehlak kooperasiyasının bazar, xidmət və digər subyektlərilə inteqrasiyasının prioritet istiqamətlərinin müəyyən edilməsi də, onun parktiki əhəmiyyətini artıran cəhətlərdəndir. Dissertasiya işində elmi və metodoloji yanaşmalar, ölkədə yeni, mütərəqqi formalı kooperativlərin yaradılması, onların biznes planlarının hazırlanması, habelə kooperasiya institutunun normatv-hüquqi bazasının genişləndirilməsi istiqamətində də elmi-informatik baza rolunda çıxış edə bilər. Eyni zamanda dissertasiya işinin müddəalarının ölkədə kooperativ hərəkatının iqtisadi tarixinin yazılmasında da əhəmiyyətli rol oynayacağı təxmin edilir. Dissertasiyanın əsas müddəalarından iqtisad yönümlü fənlərin tədrisi prosesində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi**. Tədqiqatın nəticələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, «Azərittifaq»a və onun struktur bölməsi olan Şəki Rayon Kooperativlər

Cəmiyyətinə təqdim olunmuş, müvafiq aprobasiyadan keçərək müəyyən təkliflərin tətbiqi haqqında arayışlar alınmışdır. Dissertasiya işinin əsas müddəaları haqqında beynəlxalq və respublika səviyyəli konfrans və elmi seminarlarda, məruzələr edilmiş, respublika səviyyəli siyaisi-ictimai nəşrlərdə çap olunmuşdur. Tədqiqatın nəticələri üzrə ümumilikdə 41 elmi əsər, o cümlədən, aparıcı elmi nəşrlərdə 2 monoqrafiya və 23 məqalə dərc edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi**. Dissertasiya giriş, 5 fəsil, nəticə və 165 adda ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın mətni 311 səhifədə şərh edilməklə 6 şəkil, 3 diaqram, 5 sxem, 34 cədvəl və 1 əlavədən ibarətdir.

## MÜNDƏRİCAT

**GİRİŞ** 4

**I FƏSİL. KOOPERASİYANIN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1.Kooperasiyanın nəzəri konsepsiyası 16

1.2.Kooperasiyanın yaranma tarixi və inkişaf mərhələləri 30

1.3.Qloballaşma və yeni "kooperasiya paradiqmasının" yaranması məsələləri 43

1.4.Kooperativlər və onun formalaşmasının sosial-iqtisadi əsasları 65

1.5. Qloballaşma şəraitində kooperasiyanın nəzəri aspektləri 74

**II FƏSİL. İSTEHLAK KOOPERASİYASININ TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ VƏ FƏALİYYƏT MEXANİZMİ**

2.1.İstehlak kooperasiyasının spesifik xüsusiyyətləri 82

2.2.İstehlak kooperasiyasının əsas təsisatlarının işləmə prosesinin empirik qiymətləndirilməsi 102

2.3.İstehlak kooperasiyasının təkamülünün Türkiyə təcrübəsi 118
2.4.Qloballaşma şəraitində Azərbaycanda istehlak kooperasiyasının yeni hədəflərinin və inkişaf strategiyasının qiymətləndirilməsi 130

**III FƏSİL. FERMER VƏ KƏNDLİ TƏSƏRRÜFAT KOOPERASİYASININ MÜASİR SƏVİYYƏSİ**

3.1.Kənd təsərrüfatının müasir vəziyyəti və inkişaf perspektivləri 146
3.2.Fermer və kəndli təsərrüfat kooperasiyanın maliyyələşdirilməsi problemləri 153
3.3.Aqrar-kredit kooperativlərinin fəaliyyətinin qiymətləndirilməsi 168
3.4. Kooperasiyanın səmərəliyi və qloballaşma meyiləri 182

**IV FƏSİL. İSTEHLAK BAZARININ FORMALAŞMASININ KOOPERASİYANIN İNKİŞAFINDA ROLU**

4.1.İstehlak bazarının təşəkkülünün ümumi qanunauyğunluqları və onun formalaşmasında kooperasiyanın rolu 190
4.2.İstehlakçılar və istehlak məhsulları bazarının qarşılıqlı əlaqəsi və onun xarakterik xüsusiyyətləri 208
4.3.İstehlak bazarının mövcud vəziyyətinin təhlili 218
4.4.İstehlak bazarının təminatında kooperativ təsisatlı emal sənayesinin inkişaf etdirilməsinin rolu 230

**V FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İSTEHLAK KOOPERASİYASININ İNKİŞAF PERSPEKTİVLƏRİ**

5.1.İstehlak kooperasiyasının inkişafında dövlətin tənzimləyici funksiyasinin səmərəliyinin yüksəldilməsi 252

5.2.İstehlak kooperasiyasının çoxsəviyyəli sisteminin formalaşması istiqamətləri 267

5.3. Qloballaşma şəraitində istehlak kooperasiyasında maliyyə-iqtisadi münasibətlərin təkmilləşdirilməsi 280

**NƏTİCƏ** 289

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** 297

**ƏLAVƏLƏR** 308

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işi qloballaşma və bazar iqtisadiyyatı şəraitində Azərbaycanda istehlak kooperasiyasının inkişaf problemlərinin tədqiqinə həsr olunmuşdur. İşdə kooperasiyanın elmi-nəzəri əsasları, tarixi inkişaf mərhələləri, kooperativ fəaliyyətin forma və prinsipləri, istehlak kooperasiyasının mahiyyəti və spesifik xüsusiyyətləri elmi təhlil edilmiş, onun mövcud vəziyyəti qiymətləndirilmiş, tənzimlənmə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində dövlətin funksiysının artması, eləcə də bu sferada çoxsəviyyəli sistemin formalaşmasının başlıca istiqamətləri müəyyənləşdirilmişdir.

**1. Kooperativ sektorda sosial-iqtisadi proseslərin mahiyyəti.** Kooperativ münasibətlərin sosial-iqtisadi proseslərin təşkili və idarə olunmasında əhəmiyyətli rol oynaması, onun nəzəri müstəvidə

klassik məktəbin formalaşmasına gətirib çıxarmışdır. XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən iqtisadiyyatda baş verən qloballaşma proseslərinə adekvat olaraq, kooperasiya müstəqil və suveren şəkildə sosial-iqtisadi təzahür kimi özünü göstərməyə başlamışdır. Buna görə də müasir şəraitdə kooperasiya nəzəriyyəsinin ən aparıcı problemlərindən biri kooperativ təsisatların bütövlükdə iqtisadi münasibətlər sistemində yerinin daha dəqiq və düzgün müəyyənləşdirilməsi hesab olunur.

Müasir dünyada kooperasiya hərəkatında dünya əhalisinin böyük əksəriyyəti iştirak edir. Hazırda qlobal miqyasda 8 milyona yaxın fiziki şəxslərin yaratdığı kooperativlər mövcuddur ki, həmin kooperativlər də qarşılıqlı səmərəlilik prinsiplərinə əsaslanaraq birgə fəaliyyəti həyata keçirirlər. Avropa İttifaqı ölkələrində müxtəlif sahələrdə fəaliyyət göstərən kooperativlər əmək qabiliyyətli əhalinin 46%-ni, Skandinaviya ölkələrində isə əhalinin 50%-dən çoxunu özündə birləşdirir.

Sosial-iqtisadi proseslərin qloballaşması ilə əlaqədar olaraq, hal-hazırda kooperativ sektorunun əhatə dairəsi və təməl prinsiplərində tədqiqatçılar tərəfindən birmənalı qarşılanmayan bəzi məqamlar da mövcuddur. Bunlar, ilk növbədə, kooperativ münasibətlərinin daha çox ictimailəşməsi prinsipini, yaxud da əks-kollektivləşmə və əks-milliləşmə prosesini özündə ehtiva etdiyi məqamlardır. Bundan əlavə, əmlakın bölünməzliyi və ümumi icma xarakteri daşıması baxımından kooperativlərin ictimai təsərrüfat kimi çıxış etməsi, onların bazar sahibkarlığına və mənfəətli fəaliyyətə xas olan prinsiplərə əsaslanması da birmənalı qarşılanmayan məqamlardandır. Digər tərəfdən, iqtisadiyyatın aqrar sektorunda kənd təsərrüfatı kooperativlərinin fermer təsərrüfatları ilə oxşar və fərqli cəhətləri də tam *dəqiq şəkildə* müəyyənləşdirilməmişdir.

Nəzəri baxımdan aparılan araşdırmalar göstərir ki, dünya təcrübəsində kooperativ hərəkatın yaranmasının əsas ideya utopik sosializmdən qaynaqlanır. Daha doğrusu, utopik sosializm bütövlükdə kooperativlərin yaradılmasında başlıca nəzəri baza kimi çıxış etmişdir. Bu mənada məşhur fransız utopik sosialistləri A.Sen Simon, Ş.Furye və ingilis utopik sosialisti R.Ouyen kooperativ hərəkatının inkişafına elmi baxımdan çox mühüm töhfələr vermişlər. Onların irəli sürdüyü ideyalar sonralar ABŞ-da və İngiltərədə

əhalinin xüsusi vəsaitləri hesabına istehsal və istehlak cəmiyyətlərinin formalaşmasında geniş miqyasda istifadə edilməyə başladı. Klassik şəkldə istehlak cəmiyyətləri qismində kooperativ təsisat formasının ilk vətəni İngiltərə hesab olunur. Tarixi mənbələr göstərir ki, 1769-cu ildə İngiltərəyə mənsub Şotlandiyada iki nəfərin iştirakı ilə tərəvəz toxumlarının satışını təşkil edən istehlak cəmiyyəti yaradılmışdı. Sonradan, 1777-ci ildə ölkədə Qlazqo şəhəri yaxınlığında daha bir istehlak cəmiyyəti təsis edildi ki, bu da əvvəlki istehlak cəmiyyəti ilə müqayisədə kifayət qədər təkmil formalı idi. 1844-cü ilin oktyabrında Roçdel şəhərində 28 sənayeçinin yaratdığı ədalətli «Roçdel cəmiyyəti» adlı istehlak kooperativi tarixi baxımından dünyada ilk kooperativ cəmiyyət nümunəsi kimi qəbul edilir.

XIX əsrin ortalarında Avropa ilə yanaşı digər ölkələrdə, o cümlədən ABŞ-da, Çində ilk istehlak cəmiyyətləri meydana gəldi. XIX əsrin sonlarında kooperasiya sistemi özünün regional və beynəlxalq təsisatlarını yaratdı və 1895-ci ildə dünyanın müxtəlif ölkələrinin kooperativ birlikləri Beynəlxalq Kooperativ Alyansı adlanan qlobal təsisatda birləşdi. Bu alyans artıq yaşadığımız dövrdə 210 ölkənin 750 milyondan çox kooperatorları simasinda 200-dən çox beynəlxalq və milli kooperativ təşkilatı əhatə edir.

Kooperativ təsisatların təşəkkülü və inkişafı sferasında Rusiyanın da özünəməxsus yeri vardır. Burada XIX əsrdə öncə əmək artelləri kimi yaranan istehsal kooperativləri çar Rusiyasının iqtisadi həyatında əhəmiyyətli rol oynamışdır. Sonradan bu sferada mühüm inkişaf meyilləri yaranmış və bu dövrlərdə kooperasiya daha çevik iqtisadi mexanizmə çevrilmişdir. Azərbaycanın da daxil olduğu SSRİ dövlətinin təşəkkülü dövründə kooperativ hərəkatı yeni oyanış mərhələsinə keçmiş, reallaşdırılan «Yeni iqtisadi siyasət» strategiyası aqrar, ticarət, mənzil və sair bu kimi kooperativ təsisatlarının inkişafına təkan vermişdir. Burada kooperativ təsisatlar kənd təsərrufatı və ya balıqçılıq arteli olan kolxoz və sırf kooperasiya oriyentasiyalı - koopxozlar sferasında fəaliyyət göstərmişlər. Əgər kolxozlar özündə kənd təsərrüfatı və ya balıqçılıq məhsulunun istehsalı, emalı, satışı və qanunvericiliklə qadağan olunmamış kooperatorların digər birgə fəaliyyətinin könüllülük prinsipləri əsasında birləşməsini ehtiva etmişdisə, koopxozların təsisçiləri və üzvləri yalnız kəndli və ya şəxsi yardımçı təsərrüfatları əhatə edən vətəndaş birliyinə əsaslanmışlar.

Vurğulanmalıdır ki, kooperasiyanın bu formaları SSRİ-nin süqutuna baxmayaraq, bir sıra MDB dövlətlərində hələ də qalmaqdadır. Azərbaycanda isə, ayrıca qanunvericilik aktları ilə tənzimlənməyən yeganə kolxoz təsisatlı qurum, hazırda İsmayıllı rayonunda *fəaliyyət göstərir.*

Qloballaşma şəraitində kooperativlər, artıq bir sıra istiqamətlərdə rəqabətə nə dərəcədə davamlı olduqlarını, bir növ sınaqdan keçirirlər. Bu daha çox sosial və kommunal xidmətlər sahəsini əhatə edir. Belə ki, dövlət adı qeyd olunan sektoru özünün mülkiyyət sferasından çıxarmaq siyasətinə bir növ üstünlük verir. Belə ki, dövlət xidmət sferasını tam şəkildə öz üzərinə götürməkdən bir növ imtina edir və həmin missiyanın kiçik mobil qruplu kooperativlərə, uşaqların saxlanılması, məktəbə hazırlığı, orta yaşlı və ahıllara qayğı, eləcə də tibbi və kommunal xidmətlər və s. çox zaman bu fəal qrupların fəaliyyət sferasına daxil olur.

Kooperativ fəaliyyət özünə məxsus struktur və məzmunu ilə yanaşı özünün spesifik xarakterik prinsiplərini də əks etdirir. Bu prinsiplər digər təsisatlardan fərqli və eyni olan cəhətləri ilə səciyyəvidir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, kooperativ üzvlərinin kooperativin idarə olunmasında iştirakı onun kooperativdə rolundan və qoyduğu paydan asılı olmayaraq bərabər hüquqlu şəkildə həyata keçirilir. Daha doğrusu, kooperativin idarə edilməsinin prinsipi “ **1 *iştirakçı* = 1 *səs*** “ formulu şəklində təzahür edir.

Kooperasiyanın bu prinsipləri onun bir sıra üstünlüklərə malik olduğunu göstərir. Bu üstünlüklər aşağıdakılardan ibarətdir:

- yüksəkixtisaslı əməyin motivasiyası;
- əmək, kapital və maliyyə resurslarından optimal istifadə;
- bazara daha yaxşı uyğunlaşmaq və dəyişməkdə olan bazar konyunkturasına çevik münasibət bildirmək imkanı;
- gəlirlərin daha ədalətli bölgüsü.

Müasir dövrdə kooperativ sektorunda baş verən inkişaf meyillərini, bütövlükdə iqtisadiyyatda baş verən struktur dəyişikliklərinin həyata keçirilməsi ilə əlaqələndirmək olar. Belə ki, hazırda kooperativlər öz fəaliyyətlərini daha çox istehsal-texniki təyinatlı məhsulların buraxılışı istiqamətinə yönəlmişlər ki, bu da xidmət sferasındakı kooperativlərin sayının tədricən azalmasına səbəb olur. Azalma meyilləri əsas etibarilə xüsusi resursların çatışmazlığı, eləcə də əldə

edilən xammal və materialların qiymətinin yüksək olması ilə sıx bağlıdır.

İqtisadiyyatın kooperativ sektorunun struktur təhlili belə qənaətə gəlməyə əsas verir ki, kooperativlər iqtisadiyyatın bu və ya digər sahələrində bərabər hüquqlu çıxış etmək imkanlarına malikdirlər. Bununla belə, kooperativlərin iqtisadiyyatın bu və ya digər sektorunda bərabər hüquqlu təsərrüfat subyekti kimi çıxış etməsi ilə bağlı fikirlərə baxmayaraq, bütövlükdə götürdükdə onlar müasir şəraitdə istehsalın tipik forması kimi də xarakterizə edilirlər.

**2. İstehlak kooperasiyasının Azərbaycanda inkişafı və təşkili xüsusiyyətləri.** İstehlak kooperasiyası tarixən şəhərlə kənd, sənaye və kənd təsərrüfatı arasında əmtəə mübadiləsini həyata keçirən təşkilat kimi formalaşmışdır. Belə kooperasiya təşkilatları XIX əsrin sonlarından yaradılmağa başlamış, Azərbaycanın da tərkibində olduğu Sovetlər İttifaqının mövcudluğu ərzində fəaliyyət göstərmişdir. Daha dəqiq desək, Azərbaycanda ilk kooperativ təşkilatı 1887-ci ildə Bakı şəhərində təsis edilmişdir. Qısa müddətdə əksər bölgələri əhatə edən kooperativlər 1915-ci ildə vahid ittifaqda birləşmiş, 1920-ci ildən isə Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı («*Azərittifaq*») adı ilə fəaliyyət göstərir. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra «Azərittifaq» ən kütləvi təşkilatlardan biri kimi ətrafında çoxlu sayda payçını birləşdirərək, öz fəaliyyətini yeni şəraitə uyğunlaşdırmışdır. O, yerli təşkilatları, ictimai iaşə və tədarük müəssisələri vasitəsilə əhaliyə ticarət və iaşə xidməti göstərməkdə davam edir, kənd təsərrüfatı məhsullarının tədarükünü, sənaye müəssisələrinin və əhalinin tələbatını ödəməyə yönəldir. Hazırda bu təşkilatın respublikanın bütün regionlarda müxtəlif fəaliyyət sahələrinə aid müəssisələri vardır.

Sovetlər İttifaqı dövründə respublikanın iqtisadi inkişafında əldə edilmiş nailiyyətlərdə istehlak kooperasiyasının önəmli payı olmuşdur. Təbii ki, əhalinin istehlak məhsullarına olan tələbatının tam dolğun ödənilməsi kooperativ istehsal və ticarət müəssisələrinin uğurlu fəaliyyətindən də bilavasitə asılı olmuşdur. Lakin bütövlükdə götürdükdə mərkəzləşdirilmiş planlaşdırma sisteminin iqtisadi potensialının tükənməsi, xüsusilə iqtisadi cəhətdən müstəqilliyini qoruyub saxlamalı olan payçı təsərrüfatların hüquqlarının məhdudlaşdırılması,

bu sistemin də iqtisadi böhranın təsirlərinə məruz qalmasına gətirib çıxarmış və istehlak bazarında yerli istehsal hesabına əhalinin istehlak məhsullarına və müxtəlif xidmətlərə olan tələbatının lazımi səviyyədə ödənilməməsinə şərait yaratmışdı.

Müstəqillik illərində istehlak kooperasiyasının inkişafına xüsusi qayğı göstərilməyə başlanılmış, onun yeni qanunvericilik bazası formalaşdırılmış və təkmilləşdirilmişdir. 18 aprel 1995-ci il tarixli «Aqrar islahatın əsasları haqqında» Azərbaycan Respublikasının Qanununda istehlak kooperasiyasının islahatı barədə ayrıca maddə nəzərdə tutulmuşdur. Bundan əlavə 7 fevral 1996-cı ildə «Kooperasiya haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Müstəqil Azərbaycanın ilk kooperatorları 16 noyabr 1996-cı il tarixdə özlərinin növbədənkənar XIX qurultayını keçirmiş, «Azərittifaq»ın yeni nizamnaməsi qəbul olunmuş və kooperasiya sisteminin gələcək inkişafının əsas istiqamətləri müəyyən edilmişdir. Bununla əlaqədar «Azərittifaq» sistemində iqtisadi islahatların həyata keçirilməsinin birinci mərhələsi (*1998-2000-ci illər*) başlanmışdır. Bu mərhələ üçün təsdiq edilmiş iqtisadi islahatlar proqramına uyğun olaraq sistemdə payçıların könüllü olaraq, kooperasiyanın üzvlüyündən çıxdıqları vaxt onların paylarının qaytarılması, yaxud varislərinə verilməsinin hüquqi əsaslarla müəyyənləşdirilmiş kiçik pərakəndə ticarət və ictimai iaşə müəssisələrinin ilk növbədə payçılara və ya əmək kollektivi üzvlərinə təklif olunmaqla özəlləşdirilməsi həyata keçirilmişdir.

Türkiyədə kooperasiya münasibətləri və kooperativlərin təşəkkülü və inkişaf tarixini araşdırarkən, bu sistemin hələ çox qədimlərdən Türkiyənin kəndlərində geniş yayılmış «İməcilik» qurumu və XIII əsrdə Anadolu Səlcuqlu Dövlətinin son dövrlərində ortaya çıxan «Ahi Birlikləri»nə gedib çıxdığını görürük. Əsası Ahi Evran tərəfindən qoyulan, bugünkü çağdaş kooperativçiliyin mənimsədiyi qarşılıqlı yardım və həmrəylik, qardaşlıq, fədakarlıq, hər kəsə iş, bərabər qazanc, hiyləsiz mal istehsalı, ədalətli qiymət siyasəti, üzvlərinin təhsilin təşkili kimi qaydaları böyük bir həssaslıqla həyata keçirən və XX əsrə qədər gəlib çıxan Ahilik qurumu da Türkiyədə ilkin kooperativ hərəkatına nümunə ola bilər. Türkiyədə kooperativ hərəkat və onun inkişaf meyillərinin tədqiqi istiqamətində aparılan təhlili araşdırmalar göstərir ki, burada dövlət iqtisadi inkişafın hər bir mərhələsində

kooperasiyanın dəstəklənməsi istiqamətində fəaliyyət göstərmiş, onun normativ-hüquqi bazasının mütəmadi təkmilləşdirilməsini həyata keçirmişdir. Türkiyənin Avropa Birliyinə daxil olacağı təqdirdə isə bu inkişaf meyilləri ölkəni yeni artım müstəvisinə qovuşduracaq və koopertiv təsisatlar daha mütərəqqi məzmun kəsb edəcəkdir. Bütün bunları nəzərə alaraq kooperasiya sahəsində bir sıra xarici dövlətlərin təcrübəsi öyrənilib tədqiq edilmiş, xüsusən Türkiyə təcrübəsi bir nümunə olaraq Azərbaycanda öyrənilməli, onun mütərəqqi mexanizmlərindən respublikamızda yaradıcılıqla istifadə olunmalıdır.

Aparılan tədqiqatlar göstərir ki, istehlak kooperasiyasının səmərəlilik dərəcəsinin qiymətləndirilməsində tədavül xərcləri önəmli rol oynayır. Tədavül xərcləri əmtəələrin istehsalçıdan istehlakçıya çatdırılmasına qədər pul formasında ifadə olunmuş ictimai əmək məsrəflərinin məcmusunu özündə əks etdirir.

İstehlak kooperasiyası sistemində tədavül xərclərinin xarakteristikası aşağıdakı sxemdə göstərilmişdir.




**Sxem 1. İstehlak kooperasiyasında tədavül xərcləri.**

İstehsalın davamı ilə əlaqədar xərclərə - məhsulun yüklənib daşınması, saxlanması, yenidən emal edilməsi, çeşidlənməsi, çəkilib bükülməsi və s. ilə əlaqədar olan əməliyyatların yerinə yetirilməsinə sərf olunan xərclər daxildir. Bu xərclər dəyərin yaradılması və yaxud da istehsalda yaranan dəyərin yaradılması ilə əlaqədardır. Dəyərin formasının dəyişməsi ilə əlaqədar olan xərclərə məhsulun əmtəə formasından pul formasına dəyişilməsi ilə əlaqədar olan xərclər daxildir.

İstehlak kooperasiyasının fəaliyyət sahələrində istər sabit xərcləri, istərsə də dəyişən xərcləri aşağı salmaq mümkündür. Kooperasiya sistemində tədavül xərclərinin əsas hissəsini, yəni 41,3%-ni əməkhaqqı, 14,3%-ə qədərini isə maddi-texniki bazanın saxlanması və istifadə edilməsi tutur. Qalan bütün xərcləri isə tədavül xərclərinin 54,4 %-i təşkil edir.

Cədvəl 1-də istehlak malları istehsalının xərc indeksləri verilmişdir:

***Cədvəl 1***

**İstehlak malları üzrə tədavül xərcləri**

| **S/№** | **Xərclərin növü** | **Cəmi** | *O cümlədən ticarətdə* | |
|---|---|---|---|---|
| | | | **Pərakəndə ticarət üzrə** | **Topdan ticarət üzrə** |
| *1.* | Malların daşınması | 19,5 | *19,0* | *21,8* |
| 2. | Əməkhaqqı | 41,3 | *43,6* | *30,1* |
| *3.* | Maddi-texniki bazanın saxlanması | 14,3 | *14,7* | *12,4* |
| *4.* | Malların və taranın itkisi | 2,2 | *2,9* | *2,3* |
| *5.* | Kreditə görə bank faizləri | 6,9 | *5,7* | *12,6* |
| *6.* | Bazar qiymətlərinin sığortası | 1,3 | *1,1* | *2,2* |
| *7.* | Kənar itkilərin sığortası | 1,1 | *0,8* | *1,2* |
| *8.* | Sair xərclər | 13,4 | *12,2* | *17,4* |
| **Cəmi** | | 100 | *100* | *100* |

**Mənbə:** «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi, tədavül xərclərinin əsas hissəsini rayon kooperativlər cəmiyyəti üzrə əməkhaqqı tutur. «Azərittifaq» sistemində əməkhaqqı ticarətdə tədavül xərclərinin 41,3%-ni, ictimai

iaşədə isə 55-65%-ni təşkil edir. Buna görə də kooperasiya sistemində həm ticarətdə, həm də ictimai iaşədə tədavül xərclərinin aşağı salınması üçün ilk növbədə göstərilən xərcləri azaltmaq lazımdır.

Cədvəl 2-də 1996-2012-ci illərdə «Azərittifaq» üzrə kooperativ sektorun əmtəə dövriyyəsinin göstəriciləri öz əksini tapmışdır:

*Cədvəl 2*

**«Azərittifaq» sistemi üzrə 1996-2012-ci illərdə kooperativ sektorun əmtəə dövriyyəsi**

*(min manat)*

| İllər | Pərakəndə ticarət | İctimai iaşə | Tədarük |
|---|---|---|---|
| ***1996*** | *12769,6* | *1624,7* | *4628,1* |
| ***1997*** | *8616,5* | *1529,1* | *1663,6* |
| ***1998*** | *6061,7* | *1434,2* | *1829,3* |
| ***1999*** | *4272,2* | *1235,5* | *1848,4* |
| ***2000*** | *4398,5* | *1197,5* | *1378,7* |
| ***2001*** | *4091,2* | *1190,8* | *893.9* |
| ***2004*** | *3415,5* | *877,5* | *783,3* |
| ***2005*** | *3202,1* | *826,7* | *879,5* |
| ***2006*** | *3015,8* | *802,5* | *848,0* |
| **2007** | 3006,1 | 765,7 | 1193,0 |
| ***2008*** | *1178,6* | *395,0* | *736,5* |
| ***2009*** | *1198,9* | *412,0* | *900,0* |
| ***2010*** | *1201,0* | *432,0* | *900,0* |
| ***2011*** | *2073,8* | *536,7* | *582,2* |
| ***2012*** | *2280,2* | *468,2* | *558,5* |

* Məbləğ 2004-cü ildən etibarən AZN-lə göstərilmişdir.

**Mənbə:** «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ölkədə ishehlak kooperasiyasının inkişafında Azərbaycanın *Ümumdünya Ticarət Təşkilatina* (*ÜTT*) üzvluk məsələsi mühüm əhəmiyyət kəsb edir. Bu prosesdə daha çox səmərəlilik istehlak kooperasiyasının geniş imkanlara malik oldugu aqrar sektorda əldə ediləcəkdir. Araşdırmalar göstərir ki, ÜTT-yə üzvlük məsələsi Azərbaycanda aqrar sektorun yenidən qurulması, qabaqcıl dünya təcrübəsinə əsaslanan məzmun və formada modernizə edilməsi pro-

sesini sürətləndirə bilər. Buna görə də Azərbaycanın ÜTT-yə üzvlük məsələsi daha sürətlə aparılmalı və bu istiqamətdə aqrar sektor üçün də mühüm olan prioritetlər müəyyənləşdirilməlidir. Bu prioritetlər sırasına isə, fikrimizcə, aşagıdakıları aid etmək olar:

- kənd təsərrüfatı məhsulları üzrə idxal rüsumlarının saxlanılması və daxili bazarın *konyunkturuna* uyğun tənzimlənməsi;
- milli məhsulların rəqabətqabiliyyətliliyin artırılması və təsbit edilən müddətlər ərzində subsidiyalaşdırılması;
- inkişaf etməkdə olan ölkələr üçün tətbiq edilən yeddiillik güzəştli dövrün müəyyən edilməsi;
- kooperasiyanın davamlı olaraq stimullaşdırılmasının təmin edilməsi;
- ailə (*fermer*) təsərrüfatları, müvafiq xidmət sahələri və ümumilikdə aqrar infrastrukturun inkişafının dövlət proqramları çərçivəsində reallaşdırılması.

Yeni geosiyasi vəziyyətdən bəhrələnərək, ilk uğurlu adımlarını atmış türk dünyası ölkələrində də lazımi resurs potensialının mövcudluğuna əsaslanaraq, onun bir daha geniş dövriyyəyə cəlb edilməsində kooperasiyanın imkanlarından lazımınca istifadə edilməlidir.

Apardığımız tədqiqatlara əsaslanaraq bu istiqamətdə aşağıdakı tədbirlərin reallaşması məqsədəuyğun hesab olunur:

- kooperasiya prinsiplərinin möhkəmləndirilməsi, müvafiq sahədə təbliğatın daha da gücləndirilməsi;
- kooperasiya istiqamətində onun bütün sferalarını əhatə edən ayrıca dövlətlərarası proqramların hazırlanması, qəbulu və reallaşdırılması;
- kooperasiya ilə bağlı institusional islahatların aparılması, onun normativ-hüquqi bazasının təkmilləşdirilməsi və fəaliyyət səmərəliliyini stimullaşdıran, daha əlverişli iqtisadi mühitin formalaşdırılması;
- dövlətlərarası beynəlxalq kooperasiya institusional qurumların – assosiasiyaların, bank və sığorta şirkətlərinin yaradılması.

Nəzərə alsaq ki, kooperasiyanın əsas məzmununu demokratizm, bərabərlik, həmrəylik, qarşılıqlı əməkdaşlıq təşkil edir, onda bu təsisatın transmilli gücü və iqtisadi inkişafa verə biləcəyi təsir effekti daha aydın görünər.

**3. Kooperasiya sektorunda inkişaf strateqiyasının ünsürləri və aqrar sahədə tətbiqi.**

Respublika əhalisinin təqribən yarısı kənd yerlərində yaşayır. Şəhər əhalisinin də bir qismi kənd təsərrüfatı və onun infrastrukturları ilə əlaqəlıdır. İqtisadi fəaliyyətlə məşğul olan əhalinin təqribən 35%-i kənd təsərrüfatında çalışır[4].

Tədqiqat göstərir ki, uzun müddət davam edən müharibə nəticəsində, kənd təsərrüfatının vaxtilə yüksək inkişaf etdiyi ərazilər Ermənistan Respublikası tərəfindən işğala məruz qaldığına görə, bu ərazilərdə aqrar sahənin istehsal, xidmət və emal strukturları tam məhv edilmişdir. Məhz bunun nəticəsində də,əvvəlki dövrlərlə müqayisədə kənd təssərüfatının ÜDM-də xüsusi çəkisi xeyli azalmış və 2013 –ci ildə 5,2 % təşkil etmişdir. Bu da, öz növbəsində, təbii olaraq, milli iqtisadiyyat üzrə ÜDM-in strukturunda kooperasiya sektorunun da xüsusi çəkisinin azalmasına səbəb olmuşdur.

Aqrar sektorun kreditləşdirilməsi sistemində institusional dayanıqlılığın təmin edilməsi məqsədilə İcraçı Agentliyin Çıxış Strategiyası hazırlanmışdır. Strategiya Kredit birliklərinə institusional dəstəyin göstərilməsinin əsas məqamlarını və beynəlxalq texniki yardım mütəxəssisləri ilə müqavilə başa çatdıqdan sonra kredit xəttinin idarə edilməsinə dair tövsiyələri əks etdirir. İcraçı Agentliyin vəzifələri Azərbaycan Kredit İttifaqları Assosiasiyasına (*AKİA*) həvalə edilmiş və o, kredit birliklərinin milli təşkilatı kimi çıxış edəcəkdir. Həmçinin Azərbaycan Kredit İttifaqları Assosiasiyası gələcəkdə Birgəborclular qruplarından kreditlər üzrə ödənişlərin yığılmasını həyata keçirəcəkdir.

Kənd təsərrüfatının maliyyələşdirilməsində bank olmayan kredit təşkilatları mühüm əhəmiyyətə malikdirlər. Bu sırada hazırda aqrar sahənin kredit təminatının əhəmiyyətli hissəsini öz üzərinə götürən «İcraçı Kredit Agentliyi» və əvvəllər «Aqrobank» dövlət bankı kimi uğurla fəaliyyət göstərmiş «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının fəaliyyət səmərəliliyi ilə daha çox üstünlüklər əldə etmişdir. Onun fəaliyyət səmərəliliyi istehlak kooperasiyasının da kredit stimullaşdırılması üçün əsaslar yaradır. Bu isə öz növbəsində təsisatın kredit diversifikasiyası üçün ölkənin aqrar sektorunda kooperativ hərəkatında əsas təkanverici amillərdən olacaqdır.

---

[4] Azərbaycan Dövlət Statistika Komitəsi. http://www.stat.gov.az/source/agriculture/

Bazar seqmentləşdirilməsi bazarın ayrı-ayrı sahələrə bölünməsini nəzərdə tutur ki, bunlar da həm istehlakçının tələbinin, həm də təklifin spesifikliyi ilə xarakterizə olunur. Seqmentləşdirmənin məqsədi ayrı-ayrı istehlakçı qruplarının konkret xidmət növünə münasibətini müəyyən edir. Bazarın seqmentlərə bölünməsinə uyğun olaraq kredit təşkilatları mövcud və potensial bazarların istehlakçılarına müvafiq olaraq xidmətlər təklifini tənzimləmək imkanı əldə edirlər və uzunmüddətli bazar strategiyasını hazırlayırlar. Bütün araşdırmalar əsasında aqrar sahədə kredit təşkilatının strategiyasının əsasları aşağıdakı kimi təqdim edilir:

- əsas istiqamətin kredit portfelinin inkişafının, artımının, keyfiyyətinin və müxtəlifliyinin təmin olunmasına yönəldilməsi, kredit təşkilatının marketinq strategiyasının hazırlanması və əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi;
- kredit məhsullarının qiymətinin idarə olunması prosedurunun və səmərəli nəzarət sisteminin hazırlanması, yüksəkixtisaslı və səriştəli kadr resurslarının hazırlanması və inkişaf etdirilməsi;
- aktiv müştəri münasibətləri şəbəkəsinin inkişaf etdirilməsi, risklərin idarə edilməsi xidmətinin yaradılması, xarici maliyyə institutları ilə münasibətlərin daha da genişləndirilməsi.

Bütün bunlarla yanaşı, kredit təşkilatının idarəetmə işində, maliyyələşdirmə və texnoloji tərəqqisində marketinq strategiyası da həyata keçirilməlidir.

Aqrar kredit təşkilatının marketinq strategiyasının inkişafının məqsədləri isə aşağıdakıları əhatə etməlidir:

- təşkilatın fəaliyyətinin Azərbaycan kəndinin məhsullarına və aqrar bazarın tələblərinə istiqamətlənməsi və uyğunlaşması;
- kənd iqtisadiyyatının və aqrar bazarın bütün xüsusiyyətlərinin müəyyənləşdirilməsinin təmin olunması;
- rəqib kredit təşkilatları üzərində ədalət üstünlüyünə nail olmaq hesabına kredit məhsullarının satışının həcminin artırılmasının təmin edilməsi;
- kredit təşkilatının potensialından səmərəli istifadə etməklə yeni kredit məhsullarının hazırlanmasına çəkilən xərclərin azaldılması;
- özü üçün nəzərdə tutduğu gəlir göstəricilərinə nail olunması.

Azərbaycan kəndinin iqtisadiyyatının spesifikliyini nəzərə almaqla, kredit təşkilatının sosial yönümlü faiz siyasəti aparması, onun kənddə

böyük nüfuz qazanması və bu əsasda geniş əhatəli müştəri şəbəkəsi yaratmaqla təşkilatın öz məqsədlərinə nail olması, Azərbaycan kəndinin iqtisadiyyatı üçün etibarlı, sabit və keyfiyyətli kredit xidmətini təmin edən bir təşkilata çevrilməsi kənd iqtisadiyyatının iqtisadi inkişafı prosesinə hərtərəfli kömək göstərməsi ilə nəticələnəcəkdir.

## 4. İstehlak bazarı və onun kooperasiya sektoruna təsiri.

Aparılan araşdırmalar göstərir ki, regionlarda istehlak bazarlarının fəaliyyətinin genişlənməsi artıq istehsalçıları və istehlakçıları da bu sistemin mühüm tərkib elementlərinə çevirir. Buradan belə bir nəticəyə gəlmək olur ki, istehlak bazarının formalaşması və inkişafı konkret olaraq iqtisadi sistemin tipindən və xarakterindən bilavasitə asılıdır.

Cədvəl 3-də Azərbaycan Respublikasında müstəqillik dövründə istehlak bazarının əmtəə dövriyyəsinin strukturu öz əksini tapmışdır.

*Cədvəl 3*

**Azərbaycan Respublikasında istehlak bazarının əmtəə dövriyyəsinin 1950-2012-ci illərdə strukturu (%-lə)**

| İllər | Adambaşına pərakəndə əmtəə dövriyyəsi | O cümlədən | |
|---|---|---|---|
| | | Ərzaq məhsulları | Qeyri-ərzaq məhsulları |
| *1950* | 100% | *57,5* | 42,5 |
| *1960* | | *50,9* | 49,1 |
| *1970* | | *52,4* | 47,6 |
| *1980* | | *46,6* | 53,4 |
| *1990* | | *46,8* | 53,2 |
| | | | |
| *1995* | | *75,0* | 25,0 |
| *2000* | | *68,2* | 31,8 |
| *2005* | | *65,8* | 34,2 |
| *2006* | | *65,0* | 35,0 |
| *2007* | | *64,8* | 35,2 |
| *2008* | | *64,9* | 35,1 |
| *2009* | | *66,8* | 33,2 |
| *2010* | | *65,6* | 34,4 |
| *2011* | | *66,2* | 33,8 |
| *2012* | | *66,3* | 33,7 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Aparılan təhlili göstərir ki, əgər 1950-1970-ci illərdə adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi 57,5-52,4% arasında tərəddüd etmişdirsə, 1980-1990-cı illərdə bu göstərici 46,6-46,8% arasında dəyişmişdir. 1950-1995-ci illər ərzində isə bu rəqəm artaraq 75,0 % təşkil etmişdir. Bu isə ümumi dövriyyədə, qeyri-ərzaq məhsulları istehlakının xüsusi çəkisinin üstün artması ilə bağlı qanuauyğunluqun pozulması deməkdir. Lakin sonralar ölkədə aparılan iqtisadi islahatlar nəticəsində, ərzaq və qeyri ərzaq məhsulları arasında nisbət pozitiv meyylərlə xarakterizə olunmuşdur. Belə ki, 1995-ci ildə bu göstəricinin 75,0%-dan 2012-ci ildə 66,3%-ə enməsi, artıq dinamikada müəyyən pozitiv dəyişikliklərin baş verdiyini əks etdirir.

Ölkənin ərzaq təhlükəsizliyinin davamlı təminatı hər bir dövlət üçün həyati əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə Dövlət Proqramı həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarli təminatina dair sərəncamı ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində çox mühüm dövlət sənədidir.

Bu sənəddə göstərilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Apardığımız tədqiqatlar göstərir ki, istehlak bazarının səmərəli fəaliyyəti üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- istehsal bazarında müxtəlif mülkiyyət formaları arasında sağlam rəqabəti təmin etmək, istehsal və istehlak arasında təsərrüfat əlaqələrini bazar qanunlarına uyğun olaraq təkmilləşdirmək;
- əhalinin getdikcə artan tələbatının tam və dolğun ödənilməsinə şərait yaratmaq, əhalinin istehlak mallarına olan tələbini formalaşdırmaq və istehlakın səmərəli strukturunu təmin etmək;
- istehlak mallarının səmərəli reallaşmasını həyata keçirmək, onların istehlakçıya çatdırılmasını təmin etmək, tələb və

təklif arasında dinamik tarazlığa nail olmaq və onun ənənəvi xarakter alması üçün şərait yaratmaq.

İstehlak bazarının mövcud vəziyyətinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, istehlak bazarının səmərəli fəaliyyəti və onun inkişaf etdirilməsi üçün yuxarıda qeyd olunan tədbirlərlə yanaşı bu sahədə institusional təsisatların da yaradılmasına və daha da genişləndirilməsinə böyük ehtiyac duyulmaqdadır.

### 5. Qloballaşma və istehlak kooperativlərinin perspektiv fəaliyyəti.

İqtisadiyyatda istehlak kooperasiyasının dinamik və səmərəli inkişafına yönəlmiş tədbirlər nəticə etibarilə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində və satış, təchizat problemlərinin həllində önəmli rol oynayır. Bu baxımdan istehlak kooperasiyasının inkişafı, o cümlədən istehlak birliklərinin inkişafına yardım göstərilməsi ilə bağlı dövlət dəstəyinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Hazırda istehlak bazarının formalaşdırılması sahəsində respublikada çox ciddi işlər görülür. Aparılan iqtisadi islahatlar sahibkarlığın inkişafı ilə müşayiət olunur. Bununla yanaşı, tədqiqatlar belə fikir söyləməyə əsas verir ki, milli və regional proqramların işlənib hazırlanması və həyata keçirilməsi yolu ilə kooperativ hərəkatına dövlət dəstəyi gücləndirilməlidir. Bunun üçün isə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- kooperativ müəssisələrinin bütün növləri üzrə yeni infrastrukturun formalaşdırılması, kooperativlər vasitəsilə satılan kənd təsərrüfatı məhsulları və onlardan hazırlanmış, dövlət ehtiyacları üçün göndərilən ərzaq mallarının zəmanətli minimal satınalma qiymətlərinin tətbiq edilməsi;
- kooperativlər tərəfindən öz üzvləri üçün müvafiq istehsal vasitələri alınarkən, bütün kənd təsərrüfatı əmtəə istehsalçıları üçün qüvvədə olan dotasiya və kompensasiyaların şamil edilməsi;
- kooperativ müəssisələrə müvafiq avadanlığın və texnikanın lizinq üzrə alınması üçün ilkin ödənişlərin aparılmasında güzəştlər edilməsi;
- aqroservis, məhsulun emalı, saxlanması və satışı üzrə

kooperativlərin inkişafı üçün güzəştli dövlət investisiya kreditlərinin ayrılması.

Azərbaycanda həyata keçirilən aqrar islahatların nəticələrinin müsbət cəhətləri ilə yanaşı, bir sıra təxirəsalınmaz vəzifələri də qarşıya qoyması ilə xarakterikdir. Bu baxımdan, ilk növbədə, maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi xüsusi qeyd olunmalı, müvafiq prioritetlərə kənd təsərrüfatı məhsulları istehsalçılarının cəlb olunmuş vəsaitə tələbatının ödənilməsi də aid edilməlidir. Aqrar sənaye istehsalı subyektlərinin maliyyə-kredit münasibətlərinin təhlili göstərir ki, müasir dövrdə respublikamızda milli kənd təsərrüfatı kredit sisteminin inkişafını ləngidən üç əsas amil mövcuddur:

1.Aqrar-sənaye sektorunun maliyyələşməsini və kreditləşdirilməsini təmin edən təsisatlar arasında qarşılıqlı əlaqələrin olmaması.

2.Kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinin qənaətbəxş olmaması üzündən borc resurslarından istifadə imkanlarının məhdudluğu.

3.Bir sıra yerli, əcnəbi və müştərək fondlar tərəfindən həyata keçirilən çoxsaylı məqsədli proqram və layihələr çərçivəsində maliyyə və pul axınlarının əlaqələndirilməsinin optimal səviyyəsinin itirilməsi. İstehlak kooperasiyasının tövsiyə edilən bu sistemində təşkilati-hüquqi münasibətlər kooperativ mülkiyyət münasibətlərinə əsaslanmalıdır. Sistemin bütün səviyyələrində özünüidarə, qarşılıqlı məsuliyyət və qarşılıqlı yardım prinsipləri reallaşmalıdır. Sistemin hər bir səviyyəsi ona xas olan əməliyyatları yerinə yetirir və beləliklə, əmək bölgüsü prinsipi həyata keçirilir. Birinci səviyyəli istehlak kooperativlərinin əməliyyatları lokal bazarlarla bağlıdır.

İstehlak kredit kooperasiyasının payçılarının gəliri və birliyin maliyyə vəziyyəti bilavasitə kreditləşdirmə fəaliyyətinin səmərəliliyindən asılıdır. Kredit birliyinin dayanıqlı fəaliyyəti borcların vaxtında qaytarılmasını tələb edir.

Milli maliyyə təsisatı kimi, ikinci dərəcəli kredit təşkilatının yaradılması çox perspektivlidir.

*Cədvəl 4.*

**Bank olmayan depozit-kredit təşkilatı və kommersiya bankının müqayisəli xüsusiyyətləri**

| ***Qeydiyyatın və fəaliyyətin təşkilinin xüsusiyyətləri*** | **Kommersiya bankı** | **Bank olmayan depozit-kredit təşkilatı** |
|---|---|---|
| ***Qeydiyyat və lisenziya alınması prosesi*** | **Standart** | **Ən operativ** |
| ***Maliyyə bazarına çıxış*** | **"Banklar haqqında Azərbaycan Respublikasının Qanunu" müvafiq olaraq bank əməliyyatlarının tam siyahısı** | **Bank əməliyyatlarının məhdud çeşidi** |
| ***Risk dərəcəsi*** | **Yüksək** | **Aşağı** (*yerinə yetirilən əməliyyatların əhatə dairəsinin məhdud olması ilə əlaqədar*) |
| ***Gəlirlilik*** | **Yüksək** (*spekulyativ əməliyyatlar aparılmasının mümkünlüyü ilə əlaqədar*) | **Aşağı** |

Kredit birliyi qanunvericiliklə müəyyən edilmiş mənfəət əldə edilməsini öz qarşısına məqsəd qoymadığı üçün kreditin əsas *xarakteristikalarını* müəyyən edərkən, kooperasiya hərəkatının əsas prinsiplərini rəhbər tutmalıdır. Artıq qeyd edildiyi kimi, mənfəət borc əməliyyatının əsas məqsədinə çevrilməməli, əsas məsələ kiçik və orta aqrar biznesin inkişafına kömək etməkdən ibarət olmalıdır. Əlbəttə, kredit birliyi zərərlə də işləyə bilməz.

Xarici təcrübə göstərir ki, adətən əvvəlcə mühasibat uçotu avtomatlaşdırılır. Bu məqsədlə müvafiq kompyuter texnikası və mühasibat proqramları alınır. Proqram təminatını alarkən, onun istifadə ediləcəyi ərazidə bu məhsulun texniki dəstək xidmətinin olmasına və kompleksin hansı qaydada yeniləşdiriləcəyinə diqqət yetirmək lazımdır. Növbəti mərhələdə birliyin əsas fəaliyyətinin avtomatlaşdırılması nəzərdə tutulur. Bunu bir neçə yolla - yeni proqram təminatı alınması, hazır proqram məhsulunun *dəyişilməsi* yolu ilə etmək olar.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, müvafiq tövsiyələr və təkliflər verilmişdir.

## NƏTİCƏ

Tədqiqat işinin elmi nəticələrini, irəli sürülmüş təklif və tövsiyələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Kooperasiya ilə bağlı aparılan araşdırmalar qloballaşma aspektləri ilə uzlaşdırılaraq, müvafiq ümumiləşdirmələr əsasında onun nəzəri konsepsiyası müasir reallıqlara uyğun müddəalarla zənginləşdirilmiş, kooperasiyanın inkişafına təsir edən amillər təsnifləşdirilmiş, qloballaşma proseslərinin tələblərindən irəli gələn transformasiya yönümlü dəyişikliklərin kooperasiya sektoru inkişafında rolu öyrənilmişdir. Bu məsələ ilə bağlı müəllifin gəldiyi əsas nəticə ondan ibarətdir ki, qloballaşma bazar iqtisadiyyatı sistemli bütün ölkələrdə olduğu kimi Azərbaycanda da kooperasiyanın inkişafında yeni meyillərin yaranması ilə müşayiət olunur və onun müasir dövrün tələblərinə uyğun olan yeni mütərəqqi forma və növləri təşəkkül tapır. Eyni zamanda müasir kooperativ təsisatlar daha çox innovativ xarakter daşıyır. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da kooperativlərin ən müasir növləri hesab edilən turizm, informasiya və kommunikasiya, vençur maliyyələşdirmə, nəqliyyat, təhsil, mənzil- tikinti kooperativləri və s. inkişaf etdirilməlidir.

2. Kooperasiya bazar sisteminin tam hüquqlu tərkib hissəsi olmaqla özünün fəaliyyət prinsipləri və mexanizmlərinin kamilliyinə əsaslanaraq, digər ictimai iqtisadi strukturlarla yanaşı yüksək rəqabətə davamlılıq nümayiş etdirir. Kooperasiyanın başlıca - könüllülük, müstəqillik, demokratizm, ədalət dəyərləri və s. prinsipləri bu gün də dəyişilməz qalmışdır. Bu prinsipləri dəyişmə cəhdləri isə koopera-

siyanın dövlətsizləşdirilməsinə və ya səhmdar cəmiyyətə, kolxozlara və sovxozlara çevrilməsinə gətirib çıxarmışdır. Kooperasiya sahəsində çalışan məşhur alimlər və mütəxəssislər, həmçinin müəllif, həmin qurumları kooperasiya hesab etmirlər.

3. Kooperasiya o yerdə normal fəaliyyət göstərir ki, bazar sisteminə əhalinin aztəminatlı təbəqəsi daha geniş cəlb olunur və bu prosesdə müvafiq əhali qrupları, həm istehsalçı, həm də istehlakçı statusunda müvafiq iqtisadi strukturlar yaradırlar. Kooperasiyanın miqyası isə əmtəə-pul münasibətlərinin genişlənməsindən asılı olaraq inkişaf edir. Məhz bunları nəzərə alaraq əsaslandırılır ki, qloballaşan dünya iqtisadiyyatı yaxın gələcəkdə də dövlət, özəl və kooperativ olaraq, mülkiyyətin təmsilçiləri kimi, üçsektorlu istiqamətlərdə inkişaf edəcəkdir. Bu isə o deməkdir ki, kooperasiya mühüm bir iqtisadi durum kimi hələ uzun müddət, bəzi müəlliflərin fikrincə uzun dövrlər ərzində əbədi olaraq insanların xidmətində dayanacaqdır.

4. Qloballaşma və bazar münasibətləri şəraitində istehlak kooperasiyasının və onun fəaliyyət strukturları olan kooperativlərin yeni elmi interpretasiyada şərhi verilmişdir. İstehlak kooperasiyası ənənəvi səciyyəvi xüsusiyyətlərini saxlamaqla, qloballaşma və bazar münasibətləri şəraitində əmtəələrin istehsalı, onların öz üzvlərinə və əhaliyə satışını təklif etmək məqsədilə istehlakçıları birgə tədarük əsasında birləşdirən ümumkooperasiya növü kimi çıxış edir. Onun fəaliyyət qurumu olan istehlak kooperativləri isə istehlak mallarının pərakəndə satışı və əhaliyə xidmət göstərmələri ilə məşğul olan struktur missiyasını yerinə yetirirlər.

5. Qloballaşma meyillərinə uyğun olaraq təsərrüfatçılığın xarici mühit amillərinin dəyişməsi, o cümlədən institusional mühitdə, normativ-hüquqi aktlardakı dəyişikliklər, vergilər və digər bu kimi amillər nəticə etibarilə kooperativ hərəkata da öz müsbət təsirini göstərmiş və bu sahədə müəyyən struktur dəyişiklikləri baş vermişdir. Bundan əlavə, bazar münasibətlərinə keçidlə əlaqədar olaraq ticarət sferasının liberallaşdırılması da, son nəticədə, ticarət - tədarük sektorunda fəaliyyət göstərən kooperativlərə öz təsirini göstərmişdir. Belə ki, azad bazar münasibətlərinin inkişafı nəticəsində müxtəlif təsərrüfatçılıq formalarının yaranması və bu sahədə bir sıra, xüsusən də məişət xidməti sferasında fəaliyyət göstərən kooperativlərin sayının azalmasına gətirib çıxarmışdır. Lakin bununla belə, tikinti

kooperativlərinin sayı artmış və bu proses öz növbəsində istehsal-texniki təyinatlı kooperativlərin çoxalmasına təsir etmişdir. Eyni zamanda, elmi-texniki tərəqqinin sürətlənməsi ilə bağlı, elmi-texniki istiqamətli kooperativlərin sayı da xeyli artmışdır.

6. Kooperativ hərəkatı son illər keçmiş sovet respublikaları içərisində Rusiya, Ukrayna və Belarusda, o cümlədən Şərqi Avropa ölkələrində geniş vüsət almışdır. Bu ölkələrdə kooperativ müəssisələrinin fəaliyyətindən əldə olunan faktiki gəlirin artım tempi daha yüksək olmuşdur. Belə vəziyyət əsas etibarilə iqtisadiyyatın kooperativ sektorunda məhsul istehsalının artımı transformasiya proseslərinin həyata keçirilməsi ilə əlaqədar və dövlət müəssisələrinin kooperativ sektora konversiyası nəticəsində baş vermişdir. Digər tərəfdən artım prosesi iqtisadiyyatın kooperativ sektorunda məhsul istehsalına xidmətlər göstərilməsi ilə bağlı təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlərin və məhsulun satış qiymətlərinin yüksəlməsi ilə bilavasitə bağlı olmuşdur.

7. İqtisadiyyatı inkişafda olan ölkələrdə kölgə iqtisadiyyatını motivləşdirən kooperativlər də fəaliyyət göstərir. Xüsusilə ticarət sferasında fəaliyyət göstərən kooperativlər daha çox nağd pulların nağdsızlaşdırılması sahəsində mübadilə fəaliyyətini özündə əks etdirir və qara bazarlara istiqamətlənirlər. Sahə strukturuna diqqət yetirdikdə isə, onların fəaliyyətində daha çox kütləvi istehlak maraqlarının üstünlük təşkil etməsi özünü büruzə verir. Kooperativ məhsulun strukturunda əvvəlki kimi məhsul istehsalı və xidmətlərin göstərilməsi sferası daha çox üstünlük təşkil etməkdədir.

8. Qloballaşma prosesi Azərbaycanda iqtisadiyyatın digər sahələri kimi öz inkişafında yeni meyillərin və spesifik xüsusiyyətlərin yaranması ilə müşayiət olunur. Təhlil əsasında bu kontekstdə respublikada istehlak kooperasiyasının müasir dövrdə inkişafı və spesifik xüsusiyyətləri aşkara çıxarılmışdır. Bu spesefikliyin fərqləndirici xüsusiyyəti isə kooperativ təşkilatların birləşmə meylinin aşağı olmasında öz əksini tapır. Belə ki, kənd yerlərində kooperativ təşviqatın, kooperasiya motivasiyasının zəif olması təsərrüfatların birləşməsi və irəliləşməsinə mənfi təsir göstərir. Maliyyə çətinlikləri, məhdud kreditləşmə kimi amillər də, bu sferadakı spesefik cəhətlər kimi qiymətləndirilə bilər.

9. Hal-hazırda fəaliyyət göstərən kooperativlərin istiqaməti daha çox istehsal-texniki təyinatlı məhsulların buraxılışına istiqamətlənməklə

son nəticədə xidmət sferasında fəaliyyət göstərən kooperativlərin sayının azalması prosesi müşahidə edilməkdədir ki, bu da son nəticədə həmin sahədə özəlləşmənin sürətlə həyata keçirilməsi ilə sıx bağlıdır. Bununla yanaşı, xidmət sferasında fəaliyyət göstərən kooperativlərin sayının azalma meyilləri, əsas etibarilə resurs çatışmazlığı və əldə edilən xammal və materialların qiymətinin yüksək olması ilə əlaqədardır. Nağdsız vəsaitlərlə hesablaşmalar sahəsində resursların kəskin şəkildə azalması və eyni zamanda bu sahədə maliyyə vəsaitlərinin çatışmazlığı da, azalma meyillərini şərtləndirən amillər sırasındadır.

10. Qloballaşma meyillərinin təsiri nəticəsində müəssisə kooperasiyalaşmasının genişlənməsi prosesi gedir. Nəticədə kooperasiyanın diversifikasiyası da genişlənir. İxtisaslaşma və kooperasiya arasındakı əlaqələr heç də birmənalı xarakter daşımır. Daha doğrusu, ixtisaslaşma və kooperasiya fəaliyyəti heç də bütün hallarda eyni fəaliyyət növü hesab olunmur. Müəssisə bu və ya digər hazır məhsulun çeşidi üzrə ixtisaslaşarsa, onda bütün bunlar, heç də həmişə nəticə etibarilə, kooperasiyanın genişlənməsinə gətirib çıxarmır. Müəssisələr arasında kooperativ əlaqələri isə, demək olar ki, bütün hallarda sahələrarası onların dərinləşməsini şərtləndirir. Bu zaman müəssisələr öz müstəqilliyini saxlamaqla bu və ya digər məhsul istehsalının ixtisaslaşması üzrə fəaliyyət göstərirlər. İxtisaslaşma zamanı kooperativ əlaqələrin dərinləşməsi prosesi baş verir ki, bu da istehsal prosesinin ayrı-ayrı mərhələlərində bu və ya digər məmulatlar üzrə ixtisaslaşmasını şərtləndirir.

11. Qloballaşma meyillərinin təsiri kooperativ münasibətlərinin dərinləşməsi ilə müşayiət olunur. Bu zaman kooperasiya sistemi də bir sıra üstünlüklər əldə edir. Bu üstünlüklərə əsasən aşağıdakılar aid edilir:

- kooperativ münasibətlər, bir qayda olaraq, bu və ya digər məhsula olan sifarişin yerinə yetirilməsində, eləcə də təminat məsələlərinin həllində vacib iqtisadi alət rolunda çıxış edir;
- kooperativ münasibətlər, xüsusilə sənaye sahələrində istehsal güclərindən səmərəli istifadə edilməsinə əlverişli şərait yaradır;
- kooperasiya ixtisaslaşmanın inkişafı baxımından istehsalın təşkilinin ən səmərəli forması kimi mütərəqqi texnologiyaların cəlb edilməsində mühüm rol oynayır.

Kooperasiya, həmçinin iqtisadi münasibətlərin bu və ya digər ərazi təşkilinin səmərəli həyata keçirilməsində, kommunikasiya sistemlərindən istifadə sferasında, xammal və materiallara qənaət edilməsi sahəsində də mühüm əhəmiyyət daşıyır.

12. Qloballaşma şəraitində istehlak kooperasiyası çərçivəsində onun malik olduğu mülkiyyətin payçı üzvlərə və əmək kollektivlərinə yaxınlaşdırılması davamlı inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə: payçıların üzvlük haqlarını və ona verilən dividendləri artırmaq yolu ilə onların maddi marağının yüksəldilməsi, ayrı-ayrı məhsulların onlara güzəştli qiymətlərlə satılması, istehlak kooperasiyası müəssisələri payçılarının mülkiyyətinin formalaşması mexanizmlərinin müəyyən edilməsi, istehlak kooperasiyası sistemində icarə münasibətlərinin yeni formalarının tətbiqi və icarə münasibətlərinin təkmilləşdirilməsi və müəssisə icarəyə verilərkən, ilk növbədə, onun əvvəlki üzvlərinə təklif edilməsi, istehlak cəmiyyətlərinə xidmət funksiyasını yerinə yetirən müəssisələrin və ya onun infrastrukturunun, kooperativ ittifaqının və istehlak cəmiyyətinin birgə müəssisələrinə çevrilməsi kimi tədbirlərin reallaşması məqsədəuyğun hesab edilir.

13. Respublikanın istehlak kooperasiyası sistemi çoxsahəli olmaqla həm tədavül, həm də istehsal sferasında fəaliyyət göstərir. Xalq istehlakı malları ilə ticarət, ictimai iaşə, kənd təsərrüfatı məhsullarının tədarükü, öz sənaye müəssisələrində zəruri tələbat mallarının istehsalı, yardımçı kənd təsərrüfatı və s. fəaliyyət növləri Azərbaycanın istehlak kooperasiyası sistemində həyata keçirilən əsas fəaliyyət növləridir. Müasir dövrdə istehlak kooperasiyası müəssisələri yeni şəraitə uyğunlaşmaq, mövcudluğunu qoruyub saxlamaq üçün öz fəaliyyətlərində müəyyən düzəlişlər etməyə məcburdurlar. Bunun üçün isə istehlak kooperasiyasının davamlı inkişafı təmin edilməlidir.

14. İstehlak kooperasiyası sistemində fəaliyyət göstərən tədarük təşkilatlarına əvvəlki dövrlərə nisbətən daha çox ehtiyac duyulur. Çünki müasir şəraitdə kənd təsərrüfatında aparılan islahatlar, bəzi regionlarda respublikadan kənara çıxışın zəif olması, nəqliyyat xərclərinin yüksək olması tədarükçü təşkilatları çox çətin vəziyyətə salmışdır. İstehlak kooperasiyası sisteminin təkmilləşdirilməsi respublikamızda bir sıra problemlərin həllinə də yardımçı ola bilər.

15. «Azərittifaq» sistemində qlobal çağırışlara cavab verə bilən və gələcək perspektivləri nəzərdə tutan iqtisadi islahatlar proqramı hazırlanmalıdır. Bunun üçün aşağıdakıların həyata keçirilməsi təklif olunur:

- kooperasiya sektorunda idarəetmənin təkmilləşdirilməsi məqsədilə informasiya sisteminin formalaşdırılması;
- kooperasiyanın normativ-hüquqi bazasının möhkəmləndirilməsi üçün yerlərdə monitorinq şəbəkəsinin qurulması;
- kooperativ ticarət vasitəsilə satılan məhsulların standartlaşdırılmasının təşkili.

Kredit birliyi qanunvericiliyə uyğun olaraq mənfəət əldə edilməsini öz qarşısına məqsəd qoymadığı üçün kreditin əsas xarakteristikasını müəyyən edərkən, kooperasiya hərəkatının əsas prinsipləri rəhbər tutmalıdır. Zənnimizcə, mənfəət borc əməliyyatının əsas məqsədinə çevrilməməli, əsas məsələ kiçik və orta aqrar biznesin inkişafına kömək etməkdən ibarət olmalıdır. Əlbəttə, kredit birliyi zərərlə də işləyə bilməz. Çünki borc verilən vəsaitlər kooperativin payçı üzvlərinin vəsaitidir və bu vəsaitin itirilməsi mənfi nəticələrə gətirib çıxara bilər. Kredit birliyinin öz üzvləri və tərəfdaşları ilə qarşılıqlı münasibətlərinin iqtisadi mexanizminin təkmilləşdirilməsinin bir istiqaməti də istehlak kooperasiyasında informasiyanın idarə olunması sisteminin tətbiq edilməsidir. Bu sistem kredit birliyinin rəhbərlərinə və işçilərinə kooperativin fəaliyyətini təhlil etmək, onun cari problemlərini müəyyənləşdirmək və sonda, səmərəli idarəetmə qərarları qəbul etmək imkanı verir. Mühasibat uçotu məlumatları, statistik məlumatlar, borc müqavilələri və əmanətlərlə iş üzrə məlumatların məcmu halında araşdırılmasını tələb edir.

Müvafiq mənbələrdən göründüyü kimi [40], əməliyyatların səmərəli idarə edilməsi və aqrobiznesin planlaşdırılması məqsədilə məlumatların toplanması, saxlanması, çıxarılması, ötürülməsi və istifadə edilməsi üçün nəzərdə tutulan insan-maşın sistemidir. İnformasiya-idarəetmə sisteminin tətbiq edilməsi ölkədə kredit birliklərinin sayının intensiv artımı zərurəti ilə bağlıdır. Formalaşmaqda olan kredit birlikləri, uçot prosesinin daha yüksək səviyyəyə çatdırılmasını, onun bank standartlarına yaxınlaşdirilməsını tələb edir. Araşdırmalar göstərir ki, kooperativlərin çoxu hələ də əvvəlki qaydada kağız texnologiyalarından istifadə edir, müasir proqram

təminatının tətbiqi isə az müşahidə olunur. Kredit birliklərinin payçılarının sayı artdıqca, müvafiq olaraq, kooperativ üzvlərinə düşən işin eləcə də yerinə yetirilən əməliyyatların həcmi də artır. İnformasiya-idarəetmə sistemləri kredit birliklərinin fəaliyyətini avtomatlaşdırmaqla bu məsələni qismən də olsa həll edə bilər. Almaniya, Belçika, Bolqarıstan və xüsusilə də Türkiyə tərcübəsi göstərir ki, bir qayda olaraq, əvvəlcə mühasibat uçotu avtomatlaşdırılır. Bu məqsədlə İKT-nın mütərəqqi proqram təminatı tətbiq olunur.

16. Bazar iqtisadiyyatı və qloballaşma şəraitində kooperativ fəaliyyat mexanizminin təkmilləşməsinin, Azərbaycanda kooperativ təsisatlaların istehlak bazarında genişləndirilməsində, ərzaq təhlükəsizliyinin təmin edilməsində, habelə ümumi iqtisadi inkişafda rolu danılmazdır. Azərbaycanda istehlak kooperasiyasının institusional bazası möhkəmlənməli və dövlət tərəfindən onun stimullaşdırılması daha da gücləndirilməlidir. Burada mütərəqqi xarici təcrübədən, Türkiyə Respublikasının kooperasiya sektorunda qazandığı nailiyyətlərdən yerli xüsusiyyətlər nəzərə alınmaqla, geniş istifadə olunması məqsədəuyğundur.

17. Qloballaşma çağırışı ilə əlaqədar respublikada istehlak kooperasiyasının inkişafını təmin edən strategiya formalaşdırılması və reallaşdırılması mexanizmləri, onun institusional bazası daha da təkmilləşdirilməli, kooperasiya effektivliyinin təşviqatı gücləndirilməli, kooperativ hərəkat hərtərəfli stimullaşdırılmalıdır. Kooperativlərin iflasdan qurtarmasının sığorta mexanizmi işlənib hazırlanmalı, kənd təsərrüfatı məhsullarının idxalını məhdudlaşdıran, rəqabətqabiliyyəti yüksək və yerli tələbləri dolğun ödəyə biləcək müvafiq bazar fəaliyyəti əsasları yaradılmalı, həmçinin, ÜTT-yə üzvlük məsələsində istehlak kooperasiyasının gələcək inkişaf perspektivləri və prioritetləri də nəzərə alınmalıdır. Nəzəri və praktiki biliklərə malik olan çevik işçi kollektivləri formalaşdırılıb stimullaşdırılmalı, kooperativ fəaliyyətin növ müxtəlifliyi və yeni təsərrüfatçılıq metodları daha da təkmilləşdirilməlidir. Bütün bunlarla yanaşı, qloballaşmanın mənfi təsirlərindən sığortalanmaq üçün Azərbaycanda kooperativlər öz işlərində sosial xidmətlər, təhsil, idman-sağlamlıq, ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət funksionallıqlarını genişləndirməli və bu işin səmərəliliyini daha da yüksəltməlidirlər.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. H.A.İsrafilov, L.A.Rəhimova. Kooperativ ticarətinin optimal rentabelliyinin planlaşdırılmasının təkmilləşdirilməsi məsələləri. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu. Müasir şəraitdə ticarətin iqtisadiyyatı və təşkili problemləri. Elmi əsərlər külliyyatı, IV buraxılış. Bakı, 1984. - 0,6 ç.v.

2.H.A.İsrafilov.Bazarın yeni konsepsiyasında istehlak kooperasiyasının yeri // Professor-müəllim heyətinin 1993-cü ilin elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-tematik konfransının məruzələrinin tezisləri. 17-18 mart 1994-cü il. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 1995. - 0,1 ç.v.

3. H.A.İsrafilov.Kooperativ sahibkarlığının ümumi xarakteristikası və cəmiyyətin inkişafında onun rolu // Professor-müəllim heyətinin 1996-cı ilin elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-tematik konfransının məruzələrinin tezisləri. Azərbayjan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 1997. - 0,1 ç.v.

4. H.A.İsrafilov. Kooperasiya və istehlak bazarı: formalaşma mexanizmi və inkişaf problemləri // Azərbaycan XXI əsrin astanasında. Elmi-praktik konfransın materialları. Bakı, 1988. - 0,2 ç.v.

5.H.A.İsrafilov. Azərbaycanda kredit kooperativlərinin təsisatlandırılması zərurəti və inkişaf perspektivləri // İqtisad elmləri: nəzəriyyə və praktika. Azərbaycan Dövlət İqtisad İnstitutu. 2005, №1-2. - 0,5 ç.v.

6. H.A.İsrafilov. Maliyyə kooperativləri: reallıqlar və perspektivlər // 2005-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfrans. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2006.- 0,1 ç.v.

7.H.A.İsrafilov. İstehsal kooperativləri yeni inkişaf mərhələsində // Milli iqtisadiyyatın problemləri (*məqalələr toplusu*). III buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Bakı, 2006.- 0,5 ç.v.

8. H.A.İsrafilov. İstehlak kooperasiyası sferasında daxili auditin təşkili prinsipləri // Sosial-iqtisadi inkişafın sürətləndirilməsində

maliyyə nəzarətinin rolu. Beynəlxalq elmi-praktik konfransın materialları. Azərbaycan Respublikası Auditorlar Palatası, ADİU. Bakı, 2006. - 0,1 ç.v.

9. H.A.İsrafilov. İnkişaf edən kooperasiya və dərinləşən istehlak bazarı // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Elmi əsərləri. Bakı, 2007- 0,5 ç.v.

10.H.A.İsrafilov. Bələdiyyələrin büdcə gəlirlərinnin optimallaşmasında kredit kooperativlərinin rolu // Milli iqtisadiyyatın problemləri (*məqalələr toplusu*) I buraxılış. AMEA-nın İqtisadiyyat İnstitutu. Bakı, 2007.-0,5 ç.v.

11.H.A.İsrafilov. Azərbaycanda kooperativ təsisatların genişləndirilməsi problemləri //2005-2006-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2007.- 0,1 ç.v.

12. H.A.İsrafilov. Kooperativ hərəkatı yeni inkişaf mərhələsində //Yeni informasiya texnologiyalarının elmi-tədqiqat işlərinin təhlilində tətbiqi. Elmi-praktiki seminarın materialları. AMEA Rəyasət Heyəti. Elmi-tədqiqat təcrübi konstruktor işlərinin və müdafiə olunmuş dissertasiyaların dövlət qeydiyyatı mərkəzi. Bakı: Elm, 2007.-0,1 ç.v.

13. H.A.İsrafilov. Türk dünyası ölkələri arasında kooperasiya əlaqələrinin inkişaf istiqamətləri // VII Türk dünyası: İqtisadiyyat, Elm və Mədəniyyət forumunun «İpək Yolu XXI əsrdə» mövzusunda beynəlxalq konfransın materialları. ADİU. Bakı 4-5 dekabr 2008-ci il. Bakı, 2009.-0,3 ç.v.

14. H.A.İsrafilov. Ərzaq təhlükəsizliyinin təminatında istehlak kooperasiyasının rolu və əhəmiyyəti // «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının təntənəsi» mövzusunda keçirilmiş elmi-praktiki konfransın tezisləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi. ADİU. Bakı, 2009.-0,3 ç.v.

15. H.A.İsrafilov. Qloballaşma, məşğulluq, kooperasiya//2008-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfrans. ADİU. Bakı, 2009.- 0,1 ç.v.

16.H.A.İsrafilov. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri // (*Monoqrafiya*) Bakı: «Elm», 2010.- 29,1 ç.v.

17.H.A.İsrafilov. Kooperasiyanın nəzəri konsepsiyasına retrospektiv baxış// Elmi əsərlər, III buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Bakı, 2009.- 0,5 ç.v.

18.H.A.İsrafilov. Qloballaşmanın təsir meyilləri və kooperasiyanın inkişaf istiqamətləri // Elmi əsərlər, IV buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Bakı, 2009.- 0,5 ç.v.

19. H.A.İsrafilov. Kooperativ münasibətlərinin təşəkkülü və tarixi inkişaf mərhələləri // Azərbaycan EA-nın Xəbərləri.- İqtisadiyyat seriyası, 2009.- № 3.- 0,7 ç.v.

20.H.A.İsrafilov. Qloballaşma və Azərbaycanda kooperasiyanın inkişaf meyilləri // Qlobal maliyyə böhranı: iqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi. Beynəlxalq elmi-praktiki konfrans. Azərbaycan Dövlət İqtisad Universiteti, Türkiyə Respublikası Sakarya Universiteti Türk Dünyası Araşdırmaları Vəqfi. Bakı, 2010.- 0,6 ç.v.

21. H.A.İsrafilov. Türkiyədə kooperativ hərəkat və onun inkişaf meyilləri // Elmi əsərlər, II buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Bakı, 2010.-0,8 ç.v.

22. H.A.İsrafilov. Qloballaşma və istehlak kooperasiyasının inkişaf problemləri // İqtisad elmləri: nəzəriyyə və praktika. Azərbaycan Dövlət İqtisad İnstitutu. 2009. № 1-2. - 0,5 ç.v.

23. H.A.İsrafilov. Kooperasiyanın sosial-iqtisadi aspektləri / İqtisad elmləri: nəzəriyyə və praktika. Azərbaycan Dövlət İqtisad İnstitutu. 2009.- № 2-3.- 0,5 ç.v.

24. Исрафилов Г.А. Перспективы развития кооперативных отношений в Азербайджане. «Экономика та Держава». Международный научно-практический журнал. Киев (Украина) 2012. № 4.-0,2 ç.v.

25. Исрафилов Г.А. Проблемы и тенденции развития кооперативного движения в Азербайджане // Актуальные проблемы экономики, социологии и права. 7-я Международная научно-практическая конференция. Международная Академия Финансовых Технологий. Россия, г. Пятигорск, 2010 - 0,2 ç.v.

26. H.A.İsrafilov. Kredit kooperativlərinin təşkilati-iqtisadi aspektləri və inkişaf meyilləri // Azərbaycanın Vergi Xəbərləri.- 2010.- № 10. – 0,5 ç.v.

27. H.A.İsrafilov. Yeni kooperativ formaların tətbiqinin Azərbaycanın iqtisadi inkişafında rolu // 2009-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı, 2010.-0,1 ç.v.

28. H.A.İsrafilov. Qloballaşma şəraitində kooperativ sektorun inkişaf perspektivləri // Azərbaycanın Vergi Xəbərləri.- 2011.- № 4. 0,6

29.H.A.İsrafilov. Kooperasiya sektorunda daxili audit sisteminin təkmilləşdirilməsi problemləri // 2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetrilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2011.-0.1 ç.v.

30. Исрафилов Г.А. Азербайджанские кооперативы в условиях глобализации // Сборник тезисов Международной научно-практической конференции «Модернизация образования, экономики и управления, как фактор эволюционирования современного общества». Калининградский филиала Российского университета кооперации. РФ. Калининград, 2010. -0.4 ç.v.

31.H.A.İsrafilov. Qloballaşma çağırışları və Türkiyə kooperasiyası// XI Uluslararası Türk Dünyası sosial bilimlər konqresi təbliğləri. I cild. İstanbul, 2011. - 0.4 ç.v.

32.Исрафилов Г.А. Тенденции развития кооперативного движения в Азербайджане // Актуальные проблемы развития экономики: теория и практика. Материалы Международной заочной научно-практической конференции. Министерство образования и науки Российской Федерации ГОУ ВПО «Дагестанский государственный педагогический университет». Махачкала, 2011.- 0,4 ç.v.

33.H.A.İsrafilov. Kooperativ fəaliyyətin müasir inkişaf xüsusiyyətləri // Akademik Ziyad Səmədzadənin 70 illik yubileyinə həsr edilmiş «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr». Respublika elmi-praktiki konfransın materialları. Milli inkişaf modelinin formalaşması problemləri. Bakı, 2010. - 0,3 ç.v.

34. H.A.İsrafilov. Qlobal iqtisadi böhranlar və kooperativ sektor // Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasəti: Dünya təcrübəsi və Azərbaycan modeli: Beynəlxalq elmi-praktiki konfrans. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Türkiyə və Orta Şərq İdarəetmə İnstitutu, Sankt-Peterburq Dövlət İqtisadiyyat və Maliyyə Universiteti, Türkiyə Cümhuriyyəti Mərmərə Universiteti. Bakı, 2010.- 0,1 ç.v.

35. H.A.İsrafilov. Qloballaşma şəraitində kooperativ sektorun inkişaf perspektivləri // Azərbaycan Vergi Xəbərləri.- 2011.- №4.-0,6 ç.v.

36. H.A.İsrafilov. Kooperativ harekat ve Azerbaycanda yeni kooperativ türlerinin oluşturulmasının önemi // Jornal of Qafqaz.- 2011.- №32.-0,6 ç.v.

37.Исрафилов Г.А. Потребительская кооперация Азербайджана в условиях глобализационных процессов и её роль в экономическом развитии страны. МОО «Фонд развития науки и культуры»//«Глобальный научный потенсиал». 2012 - №3 (31).- 0,5 ç.v.

38.Исрафилов Г.А. Организационно-экономические аспекты развития кредитной кооперации в Азербайджане // «Вестник экономической интеграции» 2012.- №4, Москва, апрел.- 0,5 ç.v.

39. Исрафилов Г.А. Кооперативное движение: проблемы и решения // «Вестник экономической интеграции» 2012.-№4, Москва, апрель.- 0,5 ç.v.

40. Исрафилов Г.А. Проблемы и перспективы управления сельскохозяйственными производственными кооперативами в Азербайджане // XVII Международной научно - практической конференции на тему «Экономика, социология и право в современном мире: проблемы и поиски решения», Международная Академия Финансовых Технологий, г. Пятигорск, 7-8 июня 2013 г. -0,3 ç.v.

41.Исрафилов Г.А. Кооперативные отношения в Азербайджане: реалии и перспективы//"Экономика и предпринимательство" 2013.-№10.- 0,5 ç.v.

**Гасан Абид оглы Исрафилов**

## Проблемы и перспективы развития потребительской кооперации в условиях глобализации

## РЕЗЮМЕ

Актуальность темы диссертации обусловливается тем, что в услових глобализации развитие потробительсиой кооперации является одним из главных моментов в обеспечении устойчивого развития экономики, так как потребительская кооперация наряду с удовлетворением спроса населения в продуктах питания, также играет важную роль в решении проблем потребления и раелизации в различных отраслях экономики.

Диссертация состоит из введения, 5 глав, 24 параграфов, выводов и рекомендаций, а также списка используемой литературы со ссылкой на 165 авторов. Диссертация изложена на 311 страницах, охватывает 6 рисунков, 3 диаграммы, 5 схем и 34 таблицы.

В первой главе исследуются теоретико-методологические основы, научная концепция, история возникновения и этапы развития, социально-экономические основы формирования кооперации и их особенности в условиях глобализации.

Вторая глава работы посвящена изучению организационных особенностей и механизма деятельности потребительской кооперации.

В третьей главе диссертации рассматриваются вопросы, связанные с анализом современного состояния фермерской и сельскохозяйственной кооперации.

Четвертая глава диссертации посвящена исследованию роли формирования потребительского рынка в развитии кооперации.

В пятой главе работы исследуются перспективы развития потребительской кооперации в условиях глобализации.

В заключении изложены выводы и рекомендации автора по исследуемой проблеме.

**Hasan Abid oghlu Israfilov**

**Development problems and perspectives of consumer cooperatives in condition of globalization**

## SUMMARY

The actuality of the dissertation is caused by that in conditions of globalization the development of consumer cooperation is one of the main moments in providing the sustainable development of economy as consumer cooperation along with the satisfaction of population demand in food products also plays an important role in the solution of the problems of cooperation and realization in various branches of economy.

The dissertation work consists of introduction, 5 chapters, 24 paragraphs, conclusions and recommendation, also the list of used literature with challenges to 165 authors. The dissertation is stated in 311 pages, comprises 6 pictures, 3 diagrams, 5 schemes and 34 tables.

Theoretical and methodological bases, scientific conception, history of appearance and stages of development, socio-ecological bases of formation of cooperatives and their peculiarities are investigated in the first chapter in terms of globalization.

The second chapter is devoted to the study of organizational peculiarities and mechanism of consumer corporative activity.

The problems related with the analysis of modern condition of farmers and agricultural cooperatives are revealed in the third chapter of dissertation.

The fourth chapter of dissertation is devoted to the investigation of formation role of consumer market in the development of cooperatives.

The perspectives of the development of consumer cooperatives in terms of globalization are investigated in the fifth chapter.

In conclusion the results and recommendations of the author are withdrawn on the investigated problems.

*Kağız formatı 60x84 1/16.*
*Həcmi* ***3****. ç.v. Sayı 100.*
-----------------------------------------------------
*" İqtisad Universiteti " Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ИСРАФИЛОВ ГАСАН АБИД ОГЛЫ**

# ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ПОТРЕБИТЕЛЬСКОЙ КООПЕРАЦИИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**Специальность: 5308.01 - Общая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора экономических наук

**БАКУ - 2014**